www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 24 yanvar 2018-ci il Çərşənbə № 17 (6906) Qiymıəti 60 qəpik

**Xəbər**

## İki maliyyə məmuru qəfil öldü

yazısı səh.14-də

**Gündəm**

### Alpinistlərin itkin düşməsindən 1 ay ötdü



Bəzi mütəxəssislər hesab edirlər ki, axtarışlar orada çalışan qrup üçün təhlükəlidir; rəsmi qurumlar isə işlərini davam etdirir

yazısı səh.6-da

### Prokuror AXCP sədrinin müavininə 4 il həbs cəzası istədi

yazısı səh.3-də

### Türkiyə ordusu şəhid verdi - Afrin əməliyyatına Azərbaycan müxalifətindən tam dəstək

yazısı səh.4-də

### Seçki ərəfəsi sabitlik, yoxsa qarışıqlıq olacaq?

yazısı səh.9-da

### Eldar Mahmudov "MTN işi"ni dalana yönləndirir

yazısı səh.3-də

### İranda "daxildə satqın" axtarışı başladı-ilginc gəlişmələr

yazısı səh.10-da

### AŞ PA-nın yeni prezidenti siyasətçiləri "qaraladı"- Bakıdan reaksiyalar

yazısı səh.12-də

### Davos Forumu başladı- nəhəng şirkətlərin qatıldığı tədbir haqda bilmədiklərimiz

yazısı səh.13-də

### İŞİD-ə qoşulan Rusiya FTX Akademiyasının kursantı Bakıda tutuldu

yazısı səh.14-də

### Yeni vergilər naziri işə "Naz-Lifan"la gəlir

yazısı səh.13-də

### "Reket" baş redaktorun məhkəməsində "ailə sirri"

yazısı səh.14-də

## Rus sərhədçilərini Ermənistandan çıxarmaq tələblərinə şimaldan təpki

# MOSKVADAN İRƏVANA SEÇKİ "SÜRPRİZ"İ, BAKIYA YENİ SİLAHLAR...

Rusiyanın tanınmış nəşrindən Ermənistanda yaxınlaşan prezident və baş nazir seçkilərinə dair maraqlı şərh; Putin Sərkisyanla bağlı seçimini hələ etməyib; yeni prezident "Yusif Sərrac" taleyi də yaşaya bilər...




yazısı səh.7-də

## Polad Bülbüloğlunun ermənilərlə bağlı mövqeyi kəskin etiraz doğurdu

Rusiyadakı səfirimiz "Azərbaycanda erməniləri düşmən kimi qəbul edən yeni nəsil yetişir" dedi; Bakıdan çox sərt reaksiyalar...

yazısı səh.8-də



### Fəzail Ağamalı Zərdüşt Əlizadə ilə davasına "benzin tökdü"

yazısı səh.5-də



Vahid Əhmədov

### "Exchange"lərin açılmaması ilə bağlı deputatdan ilginc iddia

yazısı səh.6-da



Sergey Sobyanin

### Moskva merinin erməni rəngi - bayraq qalmaqalı

yazısı səh.7-də

YENİ MÜSAVAT
N 17 (6906) 24 yanvar 2018

## Azərbaycandan Ümrə ziyarəti səfəri ləğv olundu

**Yanvar ayında kiçik Həcc ziyarəti (Ümrə) üçün Azərbaycanda nəzərdə tutulan səfər ləğv olunub. Bu barədə "Report"a Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) Xarici əlaqələr şöbəsindən bildirilib.**

Qeyd olunub ki, növbəti qrupun səfəri fevralın 4-ü başlayacaq: "40-50 nəfərlik həmin qrup fevralın 13-də Azərbaycana qayıdacaq".

QMİ rəsmisi əlavə edib ki, digər qrupun gedişi mart ayı üçün planlaşdırılır.

Qeyd edək ki, Həcc ziyarətindən iki ay sonra kiçik Həcc (Ümrə) ziyarətinə gedişlər başlayır. Bu il Ümrə ziyarəti üçün tələb edilən vəsaitin məbləği aşağı salınıb. Məsələn, keçən il Ümrə ziyarəti üçün ən aşağı qiymət 2 min dollardan çox idi. Hazırda qiymətlər hotelə görə 1500 dollardan 2300 dollara qədər dəyişir. Yəni qiymətlər 500 dollardan da çox ucuzlaşıb.

Ümrə ziyarəti 3 günlük Mədinə, 5 günlük Məkkə ziyarəti ilə yekunlaşır.

## Lavrovun müavini BMT rəsmisi ilə Qarabağı müzakirə etdi

**Moskvada Rusiya xarici işlər nazirinin müavini Qriqori Karasin və BMT-nin Cənubi Qafqaz üzrə Cenevrə müzakirələrinin həmsədri vəzifəsini icra edən Levent Bilman Dağlıq Qarabağ münaqişəsinin nizamlanması məsələsini müzakirə edib.**

Bu barədə Rusiya Xarici İşlər Nazirliyinin saytı xəbər yayıb.

Bildirilir ki, tərəflər münaqişənin həlli problemlərinə toxunub, xüsusilə Qafqazda təhlükəsizlik və sabitlik üzrə Cenevrə müzakirələrinə diqqət ayrılıb.

Bilman həmçinin Rusiya XİN-in müvafiq departamentlərində olaraq orada Ukraynanın şərqindəki vəziyyəti, Dağlıq Qarabağ münaqişəsinin həlli, həmçinin BMT-nin münaqişələrin qarşısının alınmasında rolunun vurğulanması ilə ümumi sülh və təhlükəsizlik məsələlərini müzakirə edib.




## "Full" paketinə qoşul, "Nar"dan "Samsung Galaxy S8" və ya "Ipad Pro" qazan!

**"Nar" öz istifadəçiləri üçün daha bir maraqlı kampaniya keçirir. Belə ki, 29 dekabr 2017-ci il - 28 yanvar 2018-ci il tarixləri arasında "Full" paketinə qoşulmuş abunəçilər mobil operatordan dəyərli hədiyyələr qazanmaq şansı əldə edirlər. Bunun üçün sadəcə "28 Mall" alış-veriş mərkəzinin 1-ci mərtəbəsində yerləşən "Nar" stendinə gəlmək kifayətdir.**

**"Nar"-ın tamamilə yeni "Full" paketlərindən birinə qoşulan abunəçilər bu sərfəli təklif sayəsində bol ünsiyyətdən həzz almanın sevincini yaşayırlar. Ölkədaxili danışıq dəqiqələri və bol internetin daxil olduğu paketlərin əsas özəlliyi qazanılan bonusların növbəti aya keçməsidir. Abunəçilərin arzu və istəklərini hər zaman nəzərə alan "Nar" istifadə edilməyən bonusların bir sonrakı aya keçməsini məhz "Full" paketi ilə təmin etdi.**

**Stendə yaxınlaşan abunəçiyə kampaniya haqqında məlumat verilərək kupon təqdim edilir. Bu kuponun sahibi kampaniyada iştirak etmək hüququ əldə etmiş olur. Kampaniyada 1 ədəd "Samsung Galaxy S8" smartfonu, 1 ədəd "Ipad Pro" planşeti və 1 ədəd "Samsung Gear S3" saatı oynanılır. Şəffaf qutudakı kuponların sahibləri arasından 3 nəfər iştirakçı təsadüfi seçimlə qalib elan ediləcək.**

**Uduş 29 yanvar 2018-ci il tarixdə saat 18:00-da "28 Mall" AVM-nin 3-cü mərtəbəsində keçiriləcək. Kampaniyanın iştirakçısı bu kuponu özündə saxlamalı və həmin vaxt uduş keçirilən yerdə olmalıdır. Uduş kuponu şəffaf qutudan çıxan iştirakçı həmin vaxt uduş keçirildiyi yerdə olmazsa, həmin uduş yenidən oynanılacaqdır. Hədiyyə qalib gələn iştirakçıya uduş kuponunu və şəxsiyyət vəsiqəsini təqdim etdiyi halda veriləcək.**

**"Azerfon" şirkəti 21 mart 2007-ci ildə "Nar Mobile" ticarət nişanı ilə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. Mobil operator şəbəkə keyfiyyətinin davamlı təkmilləşdirilməsi strategiyası çərçivəsində səs keyfiyyətinin nəzərəçarpacaq dərəcədə artımını və səsin təmiz ötürülməsini təmin edən "HD-Voice" (High Definition Voice) xidmətini təqdim edib. "Nar" şəbəkəsi hazırda ölkə ərazisinin 93%-ni əhatə edir və 6500-dən artıq baza stansiyası ilə 2 milyondan çox abunəçiyə yüksəkkeyfiyyətli xidmət göstərir.**

# Prezident Davos Forumunda müzakirələrdə çıxış etdi

**"Azərbaycanda daxili təhdidlər və risklər yoxdur". APA-nın məlumatına görə, bu sözləri Azərbaycan prezidenti İlham Əliyev Davos Dünya iqtisadi Forumu çərçivəsində "Strateji perspektivlər: Avrasiya" adlı panel müzakirələrində çıxışında deyib.**




Ölkə başçısı bildirib ki, bununla belə, Azərbaycan sərhədlərində də təhlükəsizliyini təmin etməlidir: "Qonşularla münasibətlər hər bir ölkə üçün prioritet olmalıdır. Bu, xüsusilə bizim region üçün aktualdır. Qonşularla açıq ürəkli və praqmatik münasibətlər qurmaq lazımdır. Bu, həm özünün milli maraqlarını müdafiə etmə, həm də qonşuların milli maraqlarını nəzərə alma əsasında olmalıdır.

Azərbaycan məhz belə münasibətlər qura bilib.

Azərbaycanın torpaqlarının 20 faizini işğal edən Ermənistandan başqa bütün qonşuları ilə yaxşı münasibətləri var. Bizim Xəzər dənizi və quru yolu ilə bütün qonşularla xüsusi əməkdaşlıq münasibətlərimiz mövcuddur. Ölkəmiz gəncdir, cəmi 26 yaşı var. Lakin Azərbaycan özünü əsl müstəqil ölkə kimi təsdiq edə bilib. Azərbaycan müstəqil xarici siyasət formalaşdıra bilib. Bu xarici siyasət bizim milli maraqlarımıza uyğundur və qonşularımızın maraqlarına zidd deyil.

Hesab edirəm ki, qonşularının əksəriyyətindən kiçik ölkə üçün belə bir uyğun balansı tapmaq və bu qonşuluqdan fayda əldə etmək çox vacibdir. Böyük qonşu böyük bazardır. Bizim üçün ən yaxşı bazar qonşulardır. Ölkələrimiz arasında qarşılıqlı maraqlar mövcuddur. Təbii ki, bir-birimizin daxili işinə qarışmırıq. Qonşuları ilə əməkdaşlıqda praqmatik və praktik yanaşma ölkəmizin uğurunun, daxili stabilliyinin və gələcək üçün yaxşı perspektivin əsas səbəbidir".



## ABŞ və Rusiya ordu komandanları yanvarın 26-da Bakıda olacaq

**ABŞ silahlı qüvvələrinin generalı, NATO-nun Avropadakı birləşmiş qoşunlarının komandanı Kertis Skaparotti və Rusiya silahlı qüvvələrinin Baş qərargah rəisi, ordu generalı Valeri Gerasimov yanvarın 26-da Bakıda görüşəcəklər.**

Virtualaz.org "The Wall Street Journal"a istinadən xəbər verir ki, generalların görüşündə Ukraynaya dair vəziyyət də müzakirə olunacaq. Hərçənd onların görüşünün bilavasitə səbəbi Ukrayna deyil. Həmin gün Dubayda Putinin xüsusi nümayəndəsi Vladislav Surkovla ABŞ-ın Ukrayna üzrə xüsusi nümayəndəsi Kurt Volker də görüşəcəklər. Onlar Ukraynanın şərqindəki münaqişənin dayandırılması üçün sülh planının bərpası barədə danışacaqlar.

Generallar Skaparotti və Gerasimovun yanvar ayında Bakıda görüşəcəklərinə dair məlumatı bundan əvvəl "BuzzFeed" nəşri yaymışdı. Görüş barədə razılıq generallar arasında telefon danışığı zamanı əldə olunub. Gözlənilir ki, Skaparotti və Gerasimov Bakıda Azərbaycan hərbi-siyasi rəhbərliyi ilə ayrıca danışıqlar da keçirəcək.




## «Bakcell» növbəti dəfə "Socially Devoted" sertifikatına layiq görülüb

**Azərbaycanın ilk mobil operatoru və aparıcı mobil internet provayderi «Bakcell» şirkəti 2017-ci ilin son rübü üzrə "Socially Devoted" sertifikatı ilə təltif olunub.**

**Xüsusi analitik platforma vasitəsilə dünya üzrə məşhur şirkətlərin sosial şəbəkələrdəki fəaliyyətinin monitorinqi ilə məşğul olan tanınmış "Socialbakers" şirkəti Azərbaycanda fəaliyyət göstərən şirkətlərin "Facebook" şəbəkəsində 2017-ci ilin 01 oktyabr tarixindən 31 dekabr tarixinə qədər olan fəaliyyətlərini nəzərdən keçirib. «Bakcell» böyük məmnuniyyətlə bildirir ki, həmin monitorinqin nəticələrinə əsasən, şirkət özünün rəsmi "Facebook" səhifəsinə daxil olmuş müraciətlərin 100%-ni cavablandırıb. Səhifə 2017-ci ildə dörd dəfə abunəçi sorğularının cavablandırılması üzrə "Socially Devoted" sertifikatına layiq görülüb.**

**"Bakcell"in "Facebook" səhifəsinin 400 mindən artıq istifadəçisinin olması bu nailiyyəti daha da vacib və təqdirəlayiq edir.**

**Sosial media vasitələri məhsul və xidmətlər haqqında məlumatların geniş abunəçi bazasına daha effektiv şəkildə çatdırılması və müştərilərin suallarının cavablandırılması baxımından "«Bakcell»"in vacib kommunikasiya vasitələrindən biridir. Şirkətin bir çox sosial şəbəkədə rəsmi səhifəsi fəaliyyət göstərir.**

**Yüksək keyfiyyətli xidmətin göstərilməsi və müştəri məmnuniyyəti «Bakcell» şirkətinin ümumi fəaliyyətin prioritet istiqamətlərindəndir. Şirkətin müştəri məmnuniyyəti strategiyası dünyanın aparıcı şirkətləri və əhalinin bütün təbəqələrinin tələb və ehtiyaclarının nəzərə alınması ilə yanaşı yerli bazarın tələblərinə əsaslanır.**

**"Bakcell" abunəçiləri şirkətin həftənin 7 günü, günün 24 saatı ərzində abunəçilərə yüksək keyfiyyətli xidmət göstərən "555" Məlumat Mərkəzinə və ya sorğuların 100% cavablandırılmasını təmin edən "Facebook" səhifəsinə müraciət edə bilərlər.**

## Energetika Nazirliyinin icazələri "ASAN"a verilir

**Sahibkarlıq fəaliyyətinə icazələrin verilməsində şəffaflığın artırılması, prosesin asanlaşdırılması məqsədilə Azərbaycan Energetika Nazirliyi tərəfindən müvafiq icazələr fevralın 1-dən "ASAN xidmət" mərkəzləri vasitəsilə veriləcək.**

Bu barədə Energetika Nazirliyi məlumat yayıb.

Bildirilir ki, bura ixrac nəzarətinə düşən malların (işlərin, xidmətlərin, əqli fəaliyyətin nəticələrinin) ixracı, təkrar ixracı, idxalı, təkrar idxalı və tranziti üçün icazə, müvafiq qanunvericiliyə uyğun olaraq mülki dövriyyənin müəyyən iştirakçılarına mənsub ola bilən və dövriyyədə olmasına icazə əsasında yol verilən əşyaların dövriyyəsinə icazə və ixrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında şəhadətnamənin verilməsi daxildir.

Azərbaycan energetika nazirinin 23 yanvar 2018-ci il tarixli əmrinə əsasən, Energetika Nazirliyi tərəfindən icazələrin "ASAN xidmət" mərkəzləri vasitəsilə verilməsinin təşkili, bu prosesin "Lisenziyalar və icazələr" portalı vasitəsilə həyata keçirilməsinin təmin edilməsi ilə əlaqədar bir sıra tədbirlər müəyyənləşdirilib.

## Ukrayna Rusiyadakı dünya çempionatını boykot etməyə çağırır

**Ukrayna hökuməti yerli futbol federasiyası və fanat təşkilatı ilə Rusiyada keçiriləcək dünya çempionatının mümkün boykotu və ya etirazına dair danışıqlar aparır.**

Bu haqda "İnterfaks"a Ukraynanın xarici işlər naziri Pavel Klimkin deyib: "Biz müxtəlif federasiyalarla danışıqlar aparırıq. Bu məsələni açıqlaya bilərəm. Biz həmçinin fərqli siyasi məsələlər qaldıra biləcək müxtəlif azarkeş təşkilatları ilə də danışıqlar aparırıq. Bu çempionatı ya boykot etməliyik, ya da Rusiyaya gəldiyimiz zaman öz mövqeyimizi açıq şəkildə ifadə etməliyik".

Ötən ay Ukraynada mundialın televiziya ilə boykot edilməsinin əleyhinə çıxanlar olub. Xarkovun "Metallist-1925" klubunun prezidenti Sergey Storojenko bildirib ki, ölkə sakinləri bu turniri görməlidir.

Xatırladaq ki, Ukrayna millisi iyunun 14-dən iyulun 15-dək Rusiyada keçiriləcək dünya çempionatına vəsiqə qazana bilməyib. Andrey Şevçenkonun baş məşqçisi olduğu komanda Türkiyənin də yer aldığı I qrupunda III yeri tutub.

YENİ MÜSAVAT
N 17 (6906) 24 yanvar 2018




# "Şapka Mamed"in örtülü bazarı - Beynəlxalq Bankla bağlı hesabatların gizlədilməsinin şok təfərrüatları

## Əkrəm Həsənov: "ABB-nin kreditlərinin qaytarılması adı ilə həmin banka borcu olanların əmlakını əlinə keçirir"

**"Aqrarkredit"in İdarə Heyətinin rəhbəri Məmməd Musayev Azərbaycan Beynəlxalq Bankında (ABB) aparılan işlərlə bağlı hesabat verməyə tələsmir. Halbuki ABB bu il özəlləşdirilməyə çıxarılmalıdır. 3 il əvvəl Azərbaycan Beynəlxalq Bankının toksik kreditləri "Aqrarkredit" QSC-yə təhvil verilmişdi.**

Məsələ burasındadır ki, 2015-ci il iyulun 15-də prezident İlham Əliyevin Beynəlxalq Bankın dövlətə məxsus səhmlərinin özəlləşdirilməsi ilə bağlı fərmanında deyilirdi ki, bank özəlləşdirilməyə çıxarılmazdan əvvəl sağlamlaşdırılmalıdır. Bu iş isə "Aqrarkredit" QSC - bank olmayan kredit təşkilatına həvalə olunmuşdu. Nəticədə bankın problemli kreditlərinin təmizlənməsi üçün 10 milyard manat ayrılmışdı. Həmin vaxt deyilirdi ki, problemli kreditlərdən təmizlənmiş bank özəlləşdirilməyə çıxarılacaq. Dövlət başçısının fərmanında vurğulanırdı ki, son illər bankın idarə edilməsi və investisiya-kredit siyasətində yol verilmiş nöqsanlar, o cümlədən riskli investisiya layihələrinin maliyyələşdirilməsi bankın maliyyə vəziyyətinin pisləşməsinə, problemli aktivlərinin artmasına və likvidliyinin azalmasına səbəb olub, bu da bankın dövlət payının özəlləşdirilməyə çıxarılmasına səbəb olub. Həmin vaxt Cahangir Hacıyev Azərbaycan Beynəlxalq Bankının rəhbərliyindən uzaqlaşdırılanda elan olundu ki, bankın 4 milyard problemli krediti var. Artıq 3 il keçib, Cahangir Hacıyev 15 illik həbsə məhkum olunub. Azərbaycan Beynəlxalq Bankının yeni rəhbərləri bankı müflisləşmə bataqlığından çıxarmaq əvəzinə problemli kreditlər 10 milyarda qədər artırıblar. Həmin vaxt vəziyyətdən çıxış yolu kimi bankın 10 milyard manata yaxın problemli kreditini alıb "Aqrarkredit" təşkilatına ötürülməsi yolu seçildi. Faktiki dövlət banka əlavə 10 milyard vəsait verdi. Məmməd Musayevi tanıyanlar hələ o dövrdə onun bankın problemli kreditlərini təmizləmək iqtidarında olmadığını deyirdilər. Bildirirdilər ki, "Aqrarkredit" SSRİ-dən qalma üsullarla idarə olunan geridə qalmış bir qurumdur.

**Bank sektoru üzrə ixtisaslaşmış iqtisadçı ekspert, hüquqşünas Əkrəm Həsənov müflis olmuş bankların problemli kreditlərinin "Aqrarkredit"ə verilməsinin zərərli olduğunu bəyan etmişdi. Demişdi ki, "Aqrarkredit" rəhbərliyi qeyri-peşəkar, yalnız öz mənfəətlərini güdən şəxslərdir. Rəhbəri Məmməd Musayev "Şapka Mamed" kimi tanınır:** "Beləsi problemli kreditləri necə qaytaracaq? Reallıqda bu gün Məmməd Musayevə fövqəladə səlahiyyətlər verilib. Məhkəmələr onun bir sözünü iki etmir, tapşırıq var ki, hamı ona kömək etsin və o, kreditləri qaytarsın. Qaytarırmı? Məlumat yoxdur! "Şapka Mamed" ictimaiyyət qarşısına indiyədək çıxıb məlumat vermir ki, nə işlə məşğuldur və nə edə bilib? Reallıqda isə Azərbaycan Beynəlxalq Bankın kreditlərinin qaytarılması adı ilə həmin banka borcu olanların əmlakını əlinə keçirir. Ortada olan yalnız budur".

**Keçmiş maliyyə naziri Saleh Məmmədov da ötən ilin mayında beynəlxalq mediada Azərbaycan Beynəlxalq Bankı ilə əlaqəli yazılara müəllif yazısı isə cavab vermişdi. Sabiq nazir Beynəlxalq Bankın Azərbaycan dövlətinə məxsus bank olduğunu vurğulamaqla bankla əlaqəli proseslərin şəffaf aparılmasına çağırış etmişdi.**

**Sitat:** "Bu məsələləri Azərbaycan rəsmiləri tam açıqlamalıdırlar, mətbuat vasitəsilə, əmanətçilərini, səhmdarlarını, həmçimnin beynəlxalq maliyyə kredit təşkilatlarını tam bilgiləndirməlidirlər. Bu panikanın və uyğun olaraq nəticələrinin aradan qaldırılması üçün mənə elə gəlir ki, gecikdirmədən ciddi tədbirlər görülməlidir:

**1.** Dövlətin və ya hökumətin bəyanatla çıxışı və situasiyaya tam aydınlıq gətirilməsi, mediada gedən sədaların əsassız olmasını və Azərbaycan dövlətinin real imkanlarının açıqlanması.

**2.** Maliyyə Nazirliyinin, Mərkəzi Bankın, ABB-nin, MBNP-nın ayrı-ayrılıqda mətbuatda çıxışı, ilk dərc edən media qruplarına məsələ üzrə izahat göndərilməsi və izahatın dərc olunmasına nail olunması, saytlarda geniş informasiya yerləşdirilməsi.

**3.** Bankın sağlamlaşdırılması üzrə tədbirlərin Beynəlxalq Valyutafondu ilə razılaşdırılması və tədbirlər planının geniş müzakirəsinin təşkil olunması.

**4.** Bütün səhmdarlara, müştərilərə, əmanətçilərə vəziyyət barədə sakitləşdirici məlumat verilməlidi, onlarla ciddi izahat işi aparılmamlıdır.

Bu tədbirlər zənn edirəm, gözlənilən maliyyə çaxnaşmasından bankı və ümumiyyətlə, ölkənin iqtisadiyyatını xilas edə bilər".

❑ E.HÜSEYNOV,
❑ "Yenì Müsavat"

# Eldar Mahmudov "MTN işi"ni dalana yönləndirir

## Sabiq nazirin həbsi niyə arxa plana keçib?




**Sabiq milli təhlükəsizlik naziri Eldar Mahmudovla bağlı istintaq hərəkətləri səngiyib. Daha sabiq naziri çağırıb dindirmirlər. Belə məlumatlar var ki, Eldar Mahmudov yaxın perspektivdə istintaqa çağırılmayacaq və onun həbsi məsələsi də az əvvəl olduğu kimi artıq gündəmdə deyil. Yada salaq ki, ötən ilin noyabrında Eldar Mahmudovun əmisi oğlu Baş Prokurorluğun Ağır Cinayətlərə Dair İstintaq İdarəsinə çağırılaraq həbs olunub. Bundan sonra Eldar Mahmudovun özünü də istintaqa cəlb etmişdilər. Qısa müddət ərzində sabiq naziri istintaqa çağırıb saatlarla dindirirdilər. Həmin günlərdə belə xəbərlər vardı ki, Eldar Mahmudovun məsələsinə nöqtə qoyulacaq. Bu isə baş vermədi.**

Hazırda Vüqar Mahmudovun işi üzrə istintaqda durğunluq yaranıb. İş üzrə istintaq hərəkətlərinin olduqca ləng aparıldığı bildirilir. Eyni zamanda Eldar Mahmudovun "MTN işi" çərçivəsində Sabunçu Rayon Məhkəməsində araşdırılan işlər üzrə də dindiriləcəyi gözlənilmir. Xatırladaq ki, hazırda məhkəmədə ləğv olunmuş Milli Təhlükəsizlik Nazirliyinin (MTN) sabiq baş idarə və idarə rəisləri - general Sübahir Qurbanov, general Teymur Quliyev, general Natavan Mirvətova, eləcə də həmin qurumun digər vəzifəli şəxsləri - Füzuli Əliyev, Zaur Məmmədov, Natiq Alıyev, Fərhad Atayev, Anar Şirəliyev, Eşqin Əliyev, Elşad Əzizovun cinayət işi üzrə məhkəmə prosesi davam edir. Bakı Hərbi Məhkəməsinin sədri Həbib Həsənovun sədrliyi ilə qapalı keçirilən prosesdə bir neçə epizod üzrə dindirilmələr keçirilir. Təqsirləndirilən şəxslər epizodlar üzrə ifadə verirlər. Qeyd edək ki, onlar 2015-ci ildə həbs olunublar. Eldar Mahmudovun dövlət qurumlarını öz təsiri altına salmasında, var-dövlət toplamasında bu şəxslərin müstəsna rolları var. Əlləri vəzifə səlahiyyətlərinin verdiyi imkanlardan dolayı hər kəsi dinləməyə yetib və gizli yolla əldə etdikləri informasiyanı şəxsi maraqlarını təmin etmək üçün istifadədən çəkinməyiblər. MTN-in "qara qutusu" hesab olunan Monitorinq Mərkəzindən informasiyalar sakitcə kənara axıdılıb və həmin informasiyaların aid olduğu şəxslər - iş adamları, zavod direktorları, bazar sahibləri, nazirlər, nazir müavinləri, komitə sədrləri və müavinləri, Mərkəzi Bank rəhbərliyindən tutmuş ölkədə fəaliyyət göstərən əksər bankların rəhbər işçiləri və daha kimlər "məhşər ayağına" çəkiliblər. Beləcə, gizli yolla əldə olunan şəxsi informasiyalardan sui-istifadə edərək, böyük pullara sahib olan şəxslərin cibini, həm də dilini kəsiblər. Danışan, etiraz edən olmayıb. Ola da bilməzdi. O səbəbdən ki, gizli informasiyalar üzə çıxar, "məhşər ayağına" çəkilənlər daha böyük itkilərlə üz-üzə qalar, azadlıqlarını da itirə bilərdilər. Mahmudovun dəstəsinin uzun illər ayaqda qalmasının bir sirri də məhz budur. Mahmudovun vəzifəsini itirməsi də elə bu gizli - qanunsuz dinləmələrə görədir. Bunu ilk gündən onun generallarına verilən ittihamlar sırasında yer alan Cinayət Məcəlləsinin 302.1, 302.2 - gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə edilməklə əməliyyat-axtarış fəaliyyəti haqqında qanunvericiliyi pozma - maddəsi də bir daha təsdiqləyir. İllərlə gizli-qanunsuz dinləmələr baş tutub, əldə etdikləri məlumatlardan şəxsi məqsədləri üçün istifadə ediblər. Varlanıblar, milyonlarının sayını günbəgün artırıblar. 11 ildə dövlətin maraqları, necə deyərlər, ayaqlar altına atılıb. Nəhayətdə Eldar Mahmudovdan savayı hər kəs həbs olunub. Bu gün Eldar Mahmudovun azadlıqda qalması həm də əlaltılarının vəziyyətini yaxşılaşdırır. O baxımdan ki, bütün ipucları ona yönəlir, onu isə tutmurlar. Beləcə "MTN işi" "kor dalan"a yönləndirilir...

❑ E.MƏMMƏDƏLÌYEV,
❑ "Yenì Müsavat"


Gözəl Bayramlı

# Prokuror Əli Kərimlinin müavininə 4 il həbs cəzası istədi

**Qazax Rayon Məhkəməsində Azərbaycan Xalq Cəbhəsi Partiyasının sədr müavini Gözəl Bayramlının cinayət işi üzrə məhkəmə iclası davam edib.**

Virtualaz.org-un məlumatına görə, prosesdə prokuror çıxış edib və onun 4 il azadlıqdan məhrum edilməsini istəyib.

Xatırladaq ki, Dövlət Sərhəd Xidmətinin yaydığı məlumatda bildirilir ki, 25 may 2017-ci il tarixində, saat 22 radələrində Azərbaycan vətəndaşı Bayramova Gözəl Oruc qızı Gürcüstandan Azərbaycan ərazisinə keçərkən Qazax rayonunun Şıxlı sərhəd nəzarət buraxılış məntəqəsində saxlanılıb. Gözəl Bayramova özünü şübhəli apardığına görə əl yükünə baxış keçirilərkən bəyan edilməmiş 12 min ABŞ dolları məbləğində pul vəsaiti aşkar olunaraq götürülüb.

Faktla bağlı Cinayət Məcəlləsinin 206.1-ci (qaçaqmalçılıq) maddəsi ilə cinayət işi başlanıb.

**Türkiyənin Suriyanın şimalında Afrin rayonunun terrorçulardan təmizlənməsi məqsədilə başlatdığı "Zeytun budağı" əməliyyatının 4-cü günü arxada qaldı. Türkiyə ordusu və Azad Suriya Ordusu və digər müxalif qruplardan ibarət 25 min nəfərlik ordu qüvvələri bir neçə istiqamətdən Afrin rayonu ərazisinə daxil olub. Hazırda Türkiyə qüvvələri irəliləməkdə davam edir.**

# Türkiyə ordusu yenə şəhid verdi

## Afrin əməliyyatı 5-cü günündə-hökumət xalqı səfərbər edib





Yanvarın 23-də Ankarada prezident sarayında Türkiyə prezidentinin rəhbərliyi altında Təhlükəsizlik Dəyərləndirmə Toplantısı keçirilib. Toplantıdan sonra mətbuata açıqlama verən prezidentin sözçüsü İbrahim Kalın bildirib ki, əməliyyat planlaşdırıldığı şəkildə davam edir. Hazırda ordu qüvvələrinin irəliləməkdə davam etdiyini deyən Kalın terrorçulara məxsus mövqelərin məhv edildiyini, dinc əhalinin qorunması üçün maksimum addımların atıldığını bildirib.

Bundan başqa, əməliyyatın gedişində mülki əhalinin atəş bölgəsindən çıxarılması, yardım göstərilməsi aparılır. Həmçinin beynəlxalq ictimaiyyətin və xarici ölkələr məlumatlandırılır. Kalın deyib ki, əməliyyatın əsas hədəfi terror təşkilatlarıdır, heç bir etnik qrup deyil.

Əməliyyatın 4-cü günündə Türkiyə ordusu ikinci şəhidini verib. Bu barədə twitter səhifəsində Türkiyənin xarici işlər naziri Mövlud Çavuşoğlu açıqlama yayıb. Məlumatda qeyd olunur ki, Afrin bölgəsində baş verən toqquşmalarda baş leytenant Oğuz Kaan Usta şəhid olub.

Qeyd edək ki, əməliyyatın 3-cü günü quru qüvvələri giziri Musa Özalkan şəhid olub. Ötən gün Ankarada şəhidin dəfn mərasimi keçirilib. Mərasimdə Türkiyə prezidenti Ərdoğan, Məclis sədri, baş nazir və ana müxalifət partiyasının lideri iştirak edib.

İraq Türkmən Cəbhəsindən olan Kürd muxtariyyətinin Ərbildən olan deputatı Aydın Maruf təmsil etdiyi təşkilatın Afrin əməliyyatını dəstəklədiyini bəyan edib. Bu barədə "Anadolu" agentliyi xəbər yayıb.

**Rusiya prezidentinin mətbuat katibi Dmitri Peskov kürdlərin ittihamlarına cavab verib. Qeyd edək ki, YPG baş komandiri Sipan Hemo rusların kürdlərə xəyanət etdiyini deyib. Peskov deyib ki, kürdlərin xəyanət ittihamlarına cavab verməyəcək, ancaq eyni zamanda əlavə edib ki, Rusiya Afrin əməliyyatını diqqətlə izləyir və prosesin gedişatı ilə bağlı Türkiyə və Suriya rəhbərliyi ilə təmaslarını davam etdirilər. Sitat:** "Əvvəl olduğu kimi, əsas prinsipimiz Suriyanın ərazi bütövlüyünün qorunmasıdır. Eyni zamanda Afrin əməliyyatında dinc əhalinin zərər görməməsini diqqətə alırıq".



Qeyd edək ki. "Zeytun budağı" əməliyyatına Türkiyə cəmiyyətində böyük diqqət var. Yerli telekanallar gün boyu əməliyyat bölgəsindən canlı xəbərlər verir, dəyərləndirmələr, ən son yeniliklər işıqlandırılır. Eyni zamanda ictimai rəydə əməliyyatla bağlı bir səfərbərlik var. Ötən gün Türkiyənin müxtəlif bölgələrində orduya edilən dualar, hazırlanan yeməklər və sovqatlarla bağlı xəbərlər yayılıb.

Ancaq bununla belə, hökumət əməliyyatla bağlı dezinformasiya yayılmasından narahatdır. Xüsusən də Suriya kürd separatçılarını dəstəkləyən kürd siyasətçi və təşkilatları bu məsələdə fəallıq edir. Ötən gün polis 40 nəfərə yaxın HDP üzvünü dövlət əleyhinə çağırışlarına görə həbs edib.

**Bundan başqa, məsələ prezident yanında keçirilən təhlükəsizlik toplantısında müzakirə olunub. Ərdoğanın sözçüsü Kalın deyib ki, daha əvvəl olduğu kimi, "Zeytun budağı" əməliyyatı zamanı da dezinformasiya fəaliyyətləri müşahidə olunur. Sitat:** "Mediamız da başda olmaqla, bütün ictimaiyyətimizi bu cür yalan, təhrif olunmuş, provokativ xəbər, görüntü və şayiələrə qarşı diqqətli olmağa çağırırıq. Müvafiq hüquq-mühafizə və məhkəmə orqanları bu cür dezinformasiya fəaliyyətlərini yaxından izləyir və lazımı müdaxiləri həyata keçirəcək".

Qeyd edək ki, Türkiyənin Afrindəki silahlı qruplara qarşı əməliyyatına Suriya və İranın reaksiyası əsas diqqət mərkəzindədir. Məsələ ondadır ki, İran və Suriya kürd məsələsinə ən azı Türkiyə qədər həssas yanaşır. Çünki kürd separatizmi bölgənin 4 ölkəsini - Türkiyə, Suriya, İraq və İranı təhdid edir. Konkret olaraq Suriyadakı kürd muxtariyyəti məsələsində də İran və Suriya mövqe baxımdan Türkiyəyə daha yaxındır. Ancaq məlum olduğu kimi, həm Dəməşq, həm də Tehran əməliyyata açıq dəstək vermədi. Hətta Dəməşq və Tehrandan rəsmi açıqlamalar əks mahiyyətdə oldu. Suriya rəsmən əməliyyatı ərazi bütövlüyünə təhdid adlandırdı.

Ancaq məsələ ondadır ki, rəsmi Dəməşq faktiki olaraq əməliyyatdan məmnun görünür. Çünki hazırda Afrinin 3 tərəfdən Türkiyə və müttəfiqləri, bir tərəfdən isə Suriya ordusu əhatəyə alıb. Və hazırda bölgəyə kənardan yardım yoxdur. İkincisi, ruslar da Afrindən çəkildilər. Bu da Dəməşqin açıq şəkildə göz yumduğuna işarədir.

Bunun isə bir neçə səbəbi var. Birincisi, kürdlər Suriyada Amerika ilə birgə hərəkət edir və hazırda faktiki olaraq Suriya ərazisində dövlət qurublar, ehtimal ki, Dəməşqdən bu gedişlə müstəqillik və ya siyasi muxtariyyət tələb edəcəklər. Dəməşq isə indiki vaxtda az qala ölkənin 30 faizindən çoxuna nəzarət edən kürdlərin cəzalandırılmasından məmnundur. Ancaq təbii ki, Dəməşq Afrin əməliyyatına açıq dəstək verməz. Çünki bununla ərazisinə xarici ordu yeridilməsinə razılıq vermiş, həm də Türkiyə ilə barışmış olur. Suriya isə buna hələlik tələsmir. Bu arada Suriya prezidenti Bəşər Əsəd Dəməşqdə İran nümayəndə heyətini qəbul edib və bu zaman Afrin əməliyyatına münasibət bildirib. İran Xarici Əlaqələr üzrə Strateji Şurasının sədri Kamal Xərrazi və rəhbərlik etdiyi heyəti qəbul edən prezident Bəşər Əsəd Türkiyə hökumətini tənqid edib və böhranın ilk vaxtından bu cür qrupları dəstəklədiyini deyib.

**❑ Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

# Afrin əməliyyatına Azərbaycan müxalifətindən tam dəstək

## Tural Abbaslı: "Afrin əməliyyatı Türkiyənin haqqıdır"

## Əli Əliyev: "Ərdoğan iqtidarı Türkiyənin irəliləməsinin təminatçısıdır"

**"Partiya olaraq Türkiyənin bu addımını tam dəstəkləyirik. Həmçinin şanlı türk mehmetçiyinə bu əməliyyatda zəfər arzulayırıq. Afrində Türkiyənin hərbi əməliyyata başlaması çoxdan gözlənilən bir addım idi".**




**AĞ Partiya başqanı Tural Abbaslı** Afrin əməliyyatlarından danışarkən belə deyib. "Çünki məlum məsələ idi ki, öz təhlükəsizliyinə və suverenliyinə həssas yanaşan istənilən dövlət üçün onun sərhədlərində terrorçu ordunun yaradılması qəbuledilməz haldır. Hələ nəzərə alsaq ki, bu terror təşkilatı Türkiyənin ərazi bütövlüyünə də birbaşa təhlükədir, o zaman Afrin əməliyyatı Türkiyənin təbii haqqıdır. Türkiyə artıq uzun illərdir ki, əvvəlki ölkə deyil. Belə ki o, artıq regionda baş verən proseslərdə tamaşaçı qismində yox, proseslərin aparıcı qüvvələrindən biri kimi çıxış edir. Zatən Osmanlı kimi bir dünya imperiyasının siyasi varisi olan bir dövlətə də bu yaraşar. Türkiyə onun maraqlarına toxunan məsələlərin həllində siyasi imkanlar tükəndikdə hərbi əməliyyatlara əl atmaqla yürütdüyü siyasətin arxasında güclü və nizamlı ordunun durduğunu nümayiş etdirir. Bu da öz növbəsində təbiidir ki, onun həm regionda, həm də dünyadakı nüfuzunu daha da artırır. Müşahidələr onu deməyə əsas verir ki, dünya Türkiyənin sərhədlərində təhlükəsizlik əməliyyatları keçirmə haqqını tanıdı. Artıq bunu dünya da qəbul etmədidir ki, Türkiyə simasında regionda yeni, güclü və perspektivli bir siyasi oyunçu var. Bu region üzrə qurulan istənilən planlarda onun mövqeyi və maraqları nəzərə alınmalıdır. Əminəm ki, Türkiyə ordusu çox qısa zamanda Afrin əməliyyatını uğurla başa vuracaq və Türkiyənin dövlət maraqları, həmçinin təhlükəsizliyi təmin olunacaq. İstər Azərbaycan xalqı, istərsə də Azərbaycan siyasi elitası bu ağır dönəmlərdə birmənalı olaraq qardaş Türkiyəmizin yanında olmalıdır. Unutmaq lazım deyil ki, Türkiyənin regionda və dünyada gücə çevrilməsi birbaşa bizim dövlət maraqlarımıza uyğundur. Güclü Türkiyə Azərbaycanın Qarabağ probleminin bizim maraqlar çərçivəsində həllinə ancaq və ancaq müsbət təsir edər".

**Vətəndaş və İnkişaf Partiyasının sədri Əli Əliyev Türkiyənin yanında olduqlarını vurğuladı:** "Türkiyə silahlı qüvvələrinin, onların qətiyyətli addımlarının təminatçısı olan siyasi çevrələrin son 3 ildə gördüyü işləri yüksək qiymətləndirirəm. Əvvəl Türkiyə ərazisində PKK terrorçularına, sonra isə İraq, Suriya, Qətər və Somalidə göstərilən mövqeyə müsbət yanaşıram. PKK, PYD Türkiyə və bütün müsəlman dünyasına müxtəlif güc mərkəzləri tərəfindən formalaşdırılmış hərəkatlardır. Bu terrorçu təşkilatların kürd xalqı ilə eyniliyi mövcud deyil. Həmin qruplarda müxtəlif mənşəli insan qruplarının, o cümlədən ermənilərin xidmət etdiyi artıq sübuta yetirilib. Bunların maliyyəsinin, silahının, təlimatının haradan gəldiyi məlumdur. Bu təşkilatlar müsəlman dünyasının liderinə çevrilməkdə olan Türkiyənin inkişafdan saxladılması üçün düşünülmüş kələkdən başqa bir şey deyil. Bizə Türkiyənin güclü və qüdrətli olması lazımdır. Türkiyəni inkişafdan saxlayan istənilən əngəl bizim strateji maraqlarımıza ziddir. Ərdoğan iqtidarı isə Türkiyənin irəliləməsinin təminatçısıdır. Əgər bu gün Türkiyədə milliyətçi ilə ümmətçi birləşib vahid mövqe qoyurlarsa, deməli, Türkiyə üçün ciddi təhlükə mövcuddur. Bu baxımdan Dövlət Baxçalının MHP-si tarixi missiya yerinə yetirir. Biz qardaş ölkəni Türkiyə millətçilərindən çox sevə bilmərik. Ona görə də hadisələrə qiymət verən zaman "Ərdoğan Azərbaycan müxalifətinə dəsətk vermədiyindən səhvdir" fikrindənsə, Ərdoğanın İslam və Türk dünyası üçün gördüyü miqyaslı işlərə baxmaq lazımdır. Bilirəm ki, bu mövqe bizim düşərgədə sevilmir, lakin hesab edirəm ki, düz bildiyimi deməliyəm. Əlbəttə ki, Afrin, sonra isə anons edilmiş Minbic əməliyyatı Türkiyənin nüfuzuna, güvənliyinə pozitiv təsir göstərən işlərdir. Həm təhlükəsizlik, həm də təsir baxımından qardaş dövlətin imkanlarını artıran hərəkətlərdir. Təbiidir ki, Türkiyəni "nəzarətdə" saxlamağa can atanların xoşuna gəlmir. Lakin Türkiyə düzgün olduğuna əminlik nümayiş etdirdiyindən, dünya ictimaiyyəti faktı qəbul etmək zorundadır. İstərdim ki, Azərbaycanın rəsmi çevrələri, siyasi elitası qardaş dediyimiz dövlətə dəstəklərini artırsınlar. Türkiyənin gücünün artması ilə nüfuzumuzun, Qarabağı azad etmək potensialımızın artması düz mütənasiblik təşkil edir. Təəssüf ki, hakimiyyətimiz kövrək mövqe nümayiş etdirir, çox diplomatik görünür. Bunu isə yanlış görürəm".

**❑ Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 17 (6906) 24 yanvar 2018

# Fəzail Ağamalı Zərdüşt Əlizadə ilə davasına "benzin tökdü"

## Deputat: "Onun tərcümeyi-halı başdan-başa qara ləkələrlə doludur"

**Ana Vətən Partiyasının sədri, deputat Fəzail Ağamalı ilə politoloq Zərdüşt Əlizadə arasında yaranan qarşıdurma səngimək bilmir. Deputatın kulis.az-a müsahibəsində politoloqun ictimai-siyasi xadim Xudu Məmmədovu əsəbləşdirərək ölümünə səbəb olması barədə səsləndirdiyi fikirlər tərəfləri üz-üzə qoyub.**

**AVP sədrindən sitat:** "Xudu Məmmədovla ikinci görüşümüz 1988-ci ilə təsadüf edib. O, elə həmin tarixdə də vəfat etmişdi. Dram teatrının yanında bir muzeydə yığıncaqdaydıq. Orda xalq hərəkatı haqqında söhbətlər gedirdi. Xudu Məmmədov da millətini sevən alim idi. Çox da nəhəng alim. Orda Zərdüşt Əlizadə onu əsəbiləşdirdi. Və ordaca Xudu Məmmədovun ürəyi partladı. Bu bizim son görüşümüz idi. Xudu Məmmədov orda Milli Azadlıq Hərəkatına sədaqətini nümayiş etdirirdi. Zərdüşt Əlizadə də onun əleyhinə getdi. Xudu müəllim də möhkəm əsəbiləşdi".

**Z.Əlizadənin partiya sədrinə cavab verərkən onu aşağılaması, ələ salması qarşıdurmanı daha da dərinləşdirib. Politoloqun F.Ağamalı haqda deyib:** "Fəzail Ağamalı özü xalq şahidi kimi iştirak edib, baxırdı. Polisdə ifadə də verib. Mən bıçaqla Xudu Məmmədovun başını kəsmişəm. Fəzail Ağamalı da buna birbaşa şahidlik edib. Amma məni azad etdilər. Çünki Nemət Pənahlı təqdim etdi ki, mən KKB agentiyəm".





**F.Ağamalı "Yeni Müsavat"a açıqlamasında politoloqa olduqca sərt cavab verdi:** "Bizim bir-birimizə qarşı antipatiyamız var. Mənim ondan xoşum gəlmədiyi kimi, onun da məndən xoşu gəlmir. Hətta hərəkat dövründən onun anti-milli hərəkətlərini, çağırışlarını görərək, onun əleyhinə getmişəm. O, tək deyildi, yanında Leyla Yunus, Ələkrəm Hümmətov da var idi. Bunlar milli azadlıq hərəkatının öncül isimlərinin mütləq əksəriyyətini hədəfə götürmüşdülər. Onlara qarşı ardıcıl şəkildə ən müxtəlif kampaniyalar aparırdılar. Zərdüşt Əlizadənin vaxtilə bir cəbhədə olduğu şəxslərə diqqət edin. Leyla Yunus öz ənənəsini davam etdirərək, Azərbaycanın gücləndiyi, adından söz etdirdiyi bir dövrdə ölkəmizə qarşı olan anti-azərbaycançı qüvvələrin içərisində yer alıb. Böhtanlar, iftiralar yağdırıb, özünə biznes qurmağa başlayıb. Artıq qurduğu bu bizneslə öz həyatını xaricdə yüksək səviyyədə keçirməkdədir. Zərdüşt Əlizadənin digər silahdaşı Ələkrəm Hümmətov Azərbaycanın ərazi bütövlüyünü parçalamaq üçün addımlar atdı, "Talış Muğan Respublikası"nın yaradılmasının təşəbbüskarı və rəhbəri kimi çıxış etdi, separatçı mövqeyini ortaya qoydu. Həbs olundu, həbsdən çıxdıqdan sonra isə ermənilərlə birləşib, ölkəmizə qarşı fəaliyyətini davam etdirdi. Zərdüşt Əlizadə bu satqınlarla bərabər olub. Sadəcə olaraq, o, onlar kimi hərəkət etməsə də, başqa bir rakursdan Azərbaycana qarşı olan anti-milli mövqeyini davam etdirməkdədir. Ölkəmizin milli maraqlarına kim xidmət edirsə, Zərdüşt Əlizadə ən tərbiyəsiz sözlərlə onların üstünə doğru gedir. Bilirəm ki, dediyi tərbiyəsiz sözlərə qarşı özünün layiq olduğu sözləri ona qarşı işlətsəm, bu, cəmiyyətdə bir az düzgün qəbul edilməz. Çünki mən bu cür insan deyiləm. Amma mənə nə deyibsə, bunun on qatını onun özünə qaytarıram. O ifadələri dilimə gətirmək istəmirəm. Fəzail Ağamalı, rəhmətlik Əbülfəz Elçibəy, az və ya çox dərəcədə milli azadlıq hərəkatında yeri və rolu olan Nemət Pənahlı, Elçibəyə yaxın olan və milli azadlıq hərəkatında səmimiyyətlə xalqın azadlığına xidmət edənlərin hər biri Zərdüşt Əlizadənin hədəfində olub, bu gün də hədəfindədir. Bu cür insanlar əllərində faktlar olmayanda zəif adamlar kimi təhqirə, söyüşə keçir, səviyyəsinə uyğun danışırlar. Bu da bumeranq effekti verir. Cəmiyyət bir qayda olaraq, bu cür insanları qəbul etmir, onlara qarşı münasibətləri mənfi olur. Xudu Məmmədovla bağlı dediyim faktı 30 ildən sonra dilə gətirmişəm. Bu faktdır və buna şahid olan onlarla şəxs var. Rəhmətlik Məhəmməd Hatəmi, Nemət Pənahlı, İsa Qəmbər və bu kimi onlarla şəxsin adını çəkə bilərəm. Bu fakta o cür cavab verməyi onu göstərir ki, Zərdüşt Əlizadə hələ də əvvəlki ampluasındadır. Onda Azərbaycan uğrunda canını verməyə hər an hazır olan, canını verən, bunun üçün döyüşən insanlara qarşı nifrət var. Bu nifrətin içərisində mən də yer alıram. Bu nifrət qarşılıqlı, adekvat şəkildə özünü ifadə etməkdədir. O, məni təxribatçı da adlandırır, mən heç vaxt təxribatla məşğul olmamışam. Onun bunu deməklə nəyi nəzərdə tutduğunu bilmirəm. Görünür, bu yazıya uyğun olaraq, o, məni təxribatçı adlandırıb. Onu təbliğ etməyə ehtiyac yoxdur, çünki onun tərcümeyi-halı başdan-başa qara ləkələrlə doludur. Bəlkə də bu gün də əlaqələrini kəsmədiyi, münasibətlərini saxladığı Leyla Yunus, Ələkrəm Hümmətovla birgə fəaliyyətinin davamı var. Yaxşı deyiblər, "kiminlə yoldaş olmusan, onu de, sənin kim olduğunu söyləyim". Mən onun kim olduğunu önə çəkdim. Bundan özünüz nəticə çıxarın".

❑ **Cavanşir ABBASLI,**
**"Yeni Müsavat"**

# Müxalifət üçün 2018-də bir nömrəli məsələ

## 2018-ci ildə Qarabağ məsələsi gündəmin əsasını təşkil edəcək?

**2018-ci il Qarabağ münaqişəsinin başlanmasının 30-cu ilidir. Təəssüf ki, 30 il keçməsinə baxmayaraq məsələ həll olunmamış qalır. Azərbaycan özünün haqq davasını belə görünür ki, hələ davam etdirməli olacaq. Qarabağ məsələsi Azərbaycanın dövlət olaraq bir nömrəli məsələsi kimi qalır. Bəs 2018-ci ildə müxalifətin gündəmində Qarabağ məsələsi olacaqmı, bununla bağlı hansısa çağırışlar, tədbirlər nəzərdə tutulurmu?**



**KXCP sədrinin müavini Xəzər Teyyublu** "Yeni Müsavat"a bildirdi ki, Qarabağ məsələsi daim KXCP-nin gündəliyində duran məsələdir. Nə qədər ki, torpaqlarımız işğaldadır, belə olacaq: "Bu günə qədər hakimiyyətdən və beynəlxalq təşkilatlardan Qarabağ məsələsini həll etmək tələblərimizi və təkliflərimizi müxtəlif tədbirlər keçirərək ortaya qoymuşuq. Bu il də tədbirlərlə, bəyanatlarla mövqeyimizi ortaya qoyacağıq, Qarabağ məsələsi bizim üçün hər şeydən öncə gəlir. Hesab edirik ki, hakimiyyət BMT Təhlükəsizlik Şurasının Qarabağla bağlı qətnamələrini rəhbər tutaraq məsələni həll etməlidir. Hərbi hazırlıqlar da mütləq yerində olmalıdır və Azərbaycan əsgərinin iradəsi, şücaəti müharibəni xeyrimizə həll edə bilər. Xalqımızda ruh yüksəkliyinin qaldırılması üçün də çalışacağıq. Aprel döyüşlərində də bütün xalq, siyasi qurumlar ordumuzun addımını müdafiə etdi. Bu il Qarabağla bağlı keçiriləcək tədbirimiz var. 24 yanvarda saat 12.00-da KXCP qərargahında partiyaların əməkdaşlıq mərkəzi (KXCP, Azadliq Partiyası, BAP, ALDP, Aydınlar Partiyası) və digər siyasi qurumlar, ziyalılar, Qarabağ döyüşçüləri, xalq hərəkatı nümayəndələrinin iştirakı ilə Qarabağ məsələsinə həsr edilən tədbir olacaq. Tədbir açıqdır və iştirak sərbəstdir. Əgər il ərzində Qarabağ məsələsi ilə bağlı mitinq keçirilməsi zərurəti meydana çıxarsa, bunu da edəcəyik".

**AMİP katibi Əli Orucov bildirdi ki, AMİP-in gündəminin, proqram və fəaliyyət istiqamətlərinin ana xəttini Dağlıq Qarabağ münaqişəsinin həlli, torpaqlarımızın işğaldan azad olunması kimi milli məsələlər tutur:** "Üzvlərimiz arasında Qarabağ qazilərinin sayı da digər partiyalarla müqayisədə üstünlük təşkil edir. Bununla bağlı da yüzlərlə tədbir keçirmişik və sənəd qəbul etmişik. Lakin bütün bunlar Qarabağ probleminin həllinə ancaq siyasi və mənəvi dəstək ola bilər. Problemi Azərbaycan dövləti və Azərbaycan iqtidarı həll etməlidir. Bu onun həm də vəzifəsi və borcudur. Təəssüflər olsun ki, illərlə aparılan lüzumsuz danışıqlar problemin həllini daha da çətinləşdirib. Bu azmış kimi, Ermənistan-Azərbaycan münaqişəsi lazımsız quruma çevrilən ATƏT-in Minsk Qrupunun ixtiyarına verilib. Yəni hökumət bütün məsuliyyəti üzərindən sanki atıb".

**AĞ Partiyanın sədri Tural Abbaslı qeyd etdi ki, Qarabağ məsələsi Azərbaycanın ümummilli məsələsidir. Odur ki, bu məsələdə AĞ Partiya müxalifət-iqtidar ayrımını qəbul etmir:** "Hər iki siyasi qütb bu məsələdə diqqətli və həssas olmalıdır. Qarabağ tam şəkildə erməni terrorçularından təmizlənmədikcə hər bir siyasi partiyanın gündəminin əsas hissəsini bu məsələ tutmalıdır. Biz də AĞ Partiya olaraq əvvəldən bəyan etmişik ki, Qarabağ bizim üçün siyasətdən və hər növ siyasi rəqabətdən öndə gələn prioritet məsələdir. Düşünürəm ki, Azərbaycanda fəaliyyət göstərən bütün siyasi təşkilatlar üçün bu belə olmalıdır. Təbii ki, 2018-ci ildə də biz bu problemin milli maraqlarımız çərçivəsində həll olunması üçün üzərimizə düşən hər şeyi edəcəyik. Bu işğalın dünya siyasi dairələri tərəfindən işğal faktı olaraq tanınması və Azərbaycanın haqlı mövqeyinin birmənalı dəstəklənməsi üçün də əlimizdən gələni etməyə çalışacağıq. Nəzərə alsaq ki, bu il seçki ilidir, o zaman dünyanın diqqətinin Azərbaycanda olacağını da deyə bilərik. Bunun özü də bu problemin bir daha gündəmə gətirilməsi və lazımi çağırışların edilməsi üçün əlavə imkanlar yaradacaq. Əgər AĞ Partiyanın prezidentliyə namizədi kimi qeydə alınsaq, o zaman həm televiziya, radio və dövlət qəzetlərinə də çıxışımız açıq olacaq. Bu imkandan Qarabağ məsələsində mövqeyimizin ortaya qoyulması üçün istifadə edəcəyik. Bir sözlə, Qarabağ bizim üçün sözün həqiqi mənasında bütün siyasi maraqlarımızdan öndə gəlib, gəlir və gələcəkdə də gələcək".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 17 (6906) 24 yanvar 2018

# "Exchange"lərin açılmaması ilə bağlı deputatdan ilginc iddia

## Vahid Əhmədov: "Ola bilər ki, "qara bazar" elə yüksək sürətlə inkişaf edib ki, heç "exchange"lərə ehtiyac qalmayıb"

**Maliyyə Bazarlarına Nəzarət Palatası yanvarın 5-də "Valyuta mübadiləsi fəaliyyətinə lisenziya almış şəxslər tərəfindən valyuta mübadiləsi əməliyyatlarının aparılması Qaydası"nı təsdiqləməklə "exchange"lərin fəaliyyətinə yaşıl işıq yandırdı. Yeni qaydalarda şərtlər kifayət qədər sərtləşdirilsə də, hələ də paytaxt küçələrində valyutadəyişmə məntəqələrinin (VDM) açılması müşahidə olunmur. Bəs görəsən, VDM-lərin açılması niyə bu qədər gecikir? Sahibkarları bu sahəyə yatırım etməkdən çəkindirən səbəb nədir?**




Qeyd edək ki, şərtlərdən biri də odur ki, valyuta dəyişmə əməliyyatları ilə məşğul olmaq istəyənlər lisenziya almalı, 50 min dollar və 50 min manat həcmində kapital qoyuluşu həyata keçirməlidirlər. Güman olunur ki, bu məbləğdə bir vəsaitin ilkin mərhələdə tələb olunması da investorları çəkindirən əsas amillərdən biridir.

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov da "Yeni Müsavat"a açıqlamasında hazırda bu fəaliyyət növünə marağın az olduğunu dilə gətirdi:** "Qanun qəbul olunub, artıq valyutadəyişmə məntəqələri lisenziya alıb fəaliyyət göstərə bilərlər. Ancaq bu sahəyə maraq yoxdur. O cümlədən, bankların da VDM-lərə marağı yoxdur. Ancaq Azərbaycana turist axını artdığından şənbə və bazar günləri müəyyən qədər problem yaranır. Ona görə də əgər banklar öz valyutadəyişmə məntəqələrinin şənbə və bazar günü də işləməsini təmin edə bilsə, burada heç bir problem olmaz. Bütün dünyada şənbə və bazar günləri də "exchange"lər fəaliyyət göstərir. Yəni istənilən vaxt valyuta dəyişmək mümkündür. Ancaq əgər bu, edə bilmirlərsə, VDM-lər üçün normal şərait yaradılmalıdır ki, onlar işləyə bilsinlər. Qanun layihəsində elə bir ciddi problem yoxdur. Yeganə olaraq, 50 min manat depozit qoyulması məsələsi var. Gözləyirik ki, "exchange"lər işə düşsün və görək ki, bu qanun işləyir ya yox. Hələ ki VDM-lərin fəaliyyəti müşahidə olunmur. Mən görməmişəm ki, haradasa valyutadəyişmə məntəqəsi işləsin. Bir də ola bilər ki, qara bazarda valyutadəyişmə elə yüksək sürətlə inkişaf edib ki, heç "exchange"lərə ehtiyac qalmayıb".



**İqtisadçı ekspert Rəşad Həsənov da "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, "exchange"lər yaxın günlərdə fəaliyyətə başlasa da, kütləvi xarakter daşımayacaq:** "Artıq Maliyyə Bazarlarına Nəzarət Palatası tərəfindən qaydalar təsdiqlənib. Ancaq buna baxmayaraq, nəzərə almaq lazımdır ki, bu fəaliyyət növü lisenziyalı fəaliyyət növüdür. Bu fəaliyyət növü ilə məşğul olmaq üçün lisenziyanın alınmasına ehtiyac var. Düşünürəm ki, hazırda bu istiqamətdə maraqlı olan investorlar var. Ancaq hələlik onlar həm yeni qaydaları təhlil etməyə, həm də aidiyyəti lisenziyaları əldə etməyə çalışırlar ki, bu da müəyyən zaman tələb edir. Yaxın gələcəkdə paytaxtda valyutaya tələbatın yüksək olduğu yerlərdə VDM-lərin fəaliyyətə başlamasını müşahidə edə biləcəyik. Ancaq bu kütləvi xarakter almayacaq. Çünki həm bugünkü gecikmədə, həm marağın aşağı olmasında, eyni zamanda növbəti dövrlərdə də sayın aşağı olmasında əsas səbəblərdən biri marjanın aşağı olması olacaq. Bildiyimiz kimi, artıq manatla ifadədə dövriyyənin dəyəri iki dəfə dəyişib. Hazırda bank sektorunda valyutadəyişmə bazarında müşahidə edilən rəqabətlilik marjanın kifayət qədər azalmasına gətirib çıxarıb. Bu da həmin sferada fəaliyyət göstərməkdə maraqlı olan iş adamlarını düşündürən məqamlardan biridir. Ancaq mən düşünürəm ki, müəyyən vətəndaşlar VDM-lərin açılması ilə bağlı qərar qəbul edəcək və biz bunu müşahidə edəcəyik".

**R.Həsənov onu da vurğuladı ki, 50 min manat depozitin tələb olunması da sahibkarları çəkindirir:** "Bu depozit dövriyyədən kənarda qalan bir vəsait olacaq. Bununla yanaşı, fəaliyyətlə məşğul olan sahibkarlar üçün müəyyən hüquqi məhdudiyyətlər də tətbiq olunacaq. Valyutanın alışından və ya satışından imtina etmək mümkün olmayacaq. Yeni qaydalarda bu, qanun pozuntusu kimi qeydə alınır. Bu kimi məqamlar son nəticədə, əvvəlki dövrlərdə bu sahə ilə məşğul olmuş, hazırda yenidən həmin sferaya qayıtmaq istəyən sahibkarları düşündürən məqamlardandır".

❑ **Nərgiz LİFTİYEVA,**
❑ **"Yeni Müsavat"**

# Alpinistlərin itkin düşməsindən 1 ay ötdü



## Bəzi mütəxəssislər hesab edirlər ki, axtarışların davam etdirilməsi orada çalışan qrup üçün təhlükəlidir; rəsmi qurumlar isə işlərini davam etdirir

**Quba rayonunda dağlıq ərazidə itkin düşmüş gənc alpinistlər Namin Bunyatzadə, Babur Hüseynov və Fəridə Cəbrayılzadənin axtarışları davam etdirilir. Alpinistlər ötən ayın 23-də Tufandağ istiqamətində hərəkət edərkən onlarla əlaqə kəsilib. Artıq bir aydır ki, onların axtarışları nəticə vermir. Ötən günlərdə alpinistlərin axtarışına Fövqəladə Hallar Nazirliyinin aviasiya dəstəsinin "Mi-17" markalı helikopteri, Şimal Regional Mərkəzinin axtarış-xilasetmə qrupu, Xüsusi Riskli Xilasetmə Xidmətinin dağ-xilasetmə dəstəsi və peşəkar alpinistlərdən ibarət könüllü dəstə, eləcə də xaricdən dəvət olunan alpinistlər cəlb olunublar. Lakin bütün bu cəhdlərə baxmayaraq onların axtarışları nəticə vermir.**



Hazırkı məqamda bəzi mütəxəssislər hesab edirlər ki, axtarışları havaların isinməsinə qədər dayandırmaq daha məqsədəuyğun olar. Çünki axtarışlar 10 metrdən çox qarın üzərində olmaqla dərədə aparılır. Bu isə orada işləyən qrupun da həyatının təhlükədə olması deməkdir. Əgər qeyd olunan varianta gedilsə və dağda işlər dayandırılsa, axtarış əməliyyatlarının bərpası üçün may, iyun ayları gözlənilməlidir. Çünki Tufandağda qar yalnız bu aylarda əriyir. Bu barədə "Trend"ə açıqlama verən **Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Coğrafiya İnstitutunun direktor müavini, coğrafiya üzrə fəlsəfə doktoru Məhərrəm Həsənov** da bildirib ki, itkin düşən alpinistlərin getdiyi güman edilən və axtarış aparılan ərazilərdəki qarın əriməsi mayın sonlarından - iyun ayından başlayır.

**M.Həsənov əlavə edib ki, axtarışların aparıldığı ərazilər Böyük Qafqaz dağlarında ən yüksək hissələrdir:** "Bazardüzü, Bazaryurd, Tufandağ və Şahdağ dəniz səviyyəsindən 4000 metr-dən çox yüksəklikdə yerləşir. Bu əraziyə qarın yağması təxminən sentyabr ayının II, III ongünlüklərindən başlayır və mart ayına qədər davam edir".

Lakin belə görünür ki, axtarış qrupu işləri dayandırmayacaq. Əksinə, məlumatlara görə, son günlər havanın normal keçməsi axtarışların tempini yüksəldib. Son rəsmi məlumatda qeyd olunur ki, axtarış işləri əsasən Fövqəladə Hallar Nazirliyinin müvafiq xilasetmə qüvvələri, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin əməkdaşları və peşəkar alpinistlərdən ibarət könüllü dəstələr tərəfindən aparılır.

**Alpinistlərin yaxınları isə itkin düşənlərin üzərində olan telefon siqnallarının araşdırılmasını xahiş edirlər:** "Onların üzərində mobil telefon olub. Lakin müvafiq qurumlar bu telefonların son siqnallarının haradan gəldiyini araşdırmırlar. Telefonlardan biri iPhone olub. Əgər rəsmi şəkildə "Apple" şirkətinə müraciət etsələr, "imea" kodu vasitəsilə telefondan gələn son siqnalın yerini öyrənmək olar".

**"Yeni Müsavat"a danışan alpinist Elçin Quliyev bildirib ki, əslində orada axtarışlar bir neçə gün öncədən dayandırılmalı idi:** "Dünyanın heç bir yerində bu qədər axtarışlar getmir. Sadəcə olaraq, bizimkilər həm ictimai qınaqdan ehtiyat edib axtarış aparırlar, həm də tapşırılıb ki, onlar tapılmayana qədər axtarışlar dayandırılmasın. Ancaq hazırda orada axtarış aparmaq son dərəcə təhlükəlidir. Ora gedib-gələnlərlə əlaqələrim var. Məsələn, dünən həmin ərazidə çox güclü külək olub. Lakin buna baxmayaraq axtarışlar aparılıb. Axtarış qrupu hava şərtləri imkan verən kimi əraziyə gedib işə davam edirlər. Ancaq bunun ağır fəsadları ola bilər. Çünki təhlükə böyükdür. Qaldı ki, telefon dalğası vasitəsilə ərazini müəyyənləşdirmək, bu da mümkün olan hal deyil. Lap siqnalı versələr belə konkret olaraq nöqtəni müəyyənləşdirmək olmaz. Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi belə siqnalları müəyyənləşdirə bilmədi".

**"Vertical Group" Dağ turizmi və sənaye alpinizmi şirkətinin həmtəsisçisi və alpinist Emil Vəliyev isə hesab edir ki, hava şərtləri imkan verdiyi müddətdə axtarışları davam etdirmək lazımdır:** "Uçqun təhlükəsi yoxdursa, işlər davam etdirilə bilər. Böyük qüvvələrlə yox, az tərkibli qrupla axtarışı davam etdirmək olar. Əsas şərt hava şəraiti və uçqun təhlükəsidir. Bir neçə əməkdaşla, müəyyən bir müddətdə irəliləyiş əldə etmək mümkündür".

❑ **Əli RAİS,**
❑ **"Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 17 (6906) 24 yanvar 2018

# Rus sərhədçilərini Ermənistandan çıxarmaq tələblərinə şimaldan təpki




# Moskvadan İrəvana seçki "sürpriz"i, Bakıya yeni silahlar...

## Rusiyanın tanınmış nəşrindən Ermənistanda yaxınlaşan prezident və baş nazir seçkilərinə dair maraqlı şərh; Putin Sərkisyanla bağlı seçimini hələ etməyib; yeni prezident "Yusif Sərrac" taleyi də yaşaya bilər...

**Otən həftə Ermənistanın yeni parlamentli idarəçiliyində ilk prezident olmağa ən şanslı şəxsin adı açıqlandı. Bu, hakim Respublikaçılar Partiyasının (ERP) namizədi, hazırda Böyük Britaniyada səfir olan, keçmiş baş nazir və imkanlı iş adamı Armen Sərkisyandır.**

Parlamentdə martın 2-də baş tutacaq seçkidə onun qələbəsi şübhə doğurmur. Çünki ERP parlamentdə səs çoxluğuna malikdir. Doğrudur, 1/4 hissə deputatları olan bloklar da namizəd irəli sürə bilər. Lakin belə bir hüquq hakim partiyadan sonra yeganə "Tsarukyan" blokuna məxsusdur. Lakin bu blok prezidentliyə namizəd irəli sürmək fikrində deyil. Üstəgəl, "Daşnaksütyun" rəsmisi də Armen Sərkisyanın namizədliyinə etiraz eləməyib.

*****

**Bu xüsusda Rusiyanın Rosbalt.ru nəşrinin Ermənistandakı seçki öncəsi duruma həsr elədiyi məqalə diqqət çəkir. "Yeni Müsavat" xəbər verir ki, müəllif öncə düşünmək üçün 3 gün möhlət istəmiş Armen Sərkisyanı gözləyən taledən yazıb:** "Yerli ekspertlərdən kimsə parlamentli idarəçilikdə prezident vəzifəsini "gülləyə tuş gələn" adlandırıb. Yəni əgər ölkədə işlər "yaxşı getməsə", hər şeyi dövlət başçısını üzərinə yıxıb onu istefaya göndərə bilərlər".

**Yəni belə çıxır ki, yeni prezident "Yusif Sərrac" taleyi də yaşaya bilər.**

"İndiki prezident Serj Sərkisyan haqda "suda batmaz siyasətçi" imici var. Bunu o, bir neçə dəfə sübut edib - hərçənd həm də Rusiyanın dəstəyi ilə. Kreml Sərkisyana bu dəfə də havadarlıq edəcəkmi? Söyləmək çətindir. Əgər edəcəksə, onda baş nazir o, olacaq. Yox, Moskva ondan soyuyubsa, respublikanın siyasətində yeni, "kompromis şəxs" peyda olacaq", - deyə müəllif ehtimal edib.

Həmin şəxsin hazırda Sərkisyandan daha yaxşı reputasiyaya malik olan indiki baş nazir Karen Karapetyanın olması da istisna olunmur.

**Məqalədə daha sonra deyilir:** "Erməni politoloqlarından Levon Şirinyan hesab edir ki, Serj Sərkisyan yalnız o halda hakimiyyətə qayıdacaq ki (heç hakimiyyətdən getmədən), fors-major vəziyyətlər olmayacaq. Onun fikrincə, hələlik əhalinin və müxalif "Yelk" ("Çıxış-red.") blokunun bahalaşmaya reaksiyasını gözləmək lazımdır. Bunlar katalizator rolunda olan məsələlərdir və hakimiyyət bilməlidir ki, istənilən sosial hərəkat çox tezliklə siyasi hərəkata çevrikə bilər. Ermənistanda fors-major vəziyyəti isə artıq hiss olunur - hələlik miqyas böyük olmasa da".

**Müəllifə görə, bundan ötrü motiv ikidir: "1.** Müxalifət ərzaq məhsullarının kəskin bahalaşması ilə bağlı mitinqlər keçirir - hansı bahalaşmaya görə ki, bəziləri günahı ölkənin Avrasiya İqtisadi Birliyinə üzvlüyündə görür, bir başqaları isə acgöz korrupsioner hakimiyyətdə. İkinci motiv isə sırf siyasidir. Söhbət Ermənistanın xarici sərhədlərini Rusiya FSB-si (**Federal Təhlükəsizlik Xidməti - FTX-red.**) tərəfindən qorunmasına qarşı etirazların getdikcə güclənməsindən gedir. Rusiya sərhədçiləri hazırda İrəvan hava limanında, İran və Türkiyə ilə sərhəddə dislokasiya olunublar. "Rusları qovmaq" tərəfdarları hesab edir ki, onların ölkədən çıxarılması Ermənistana imkan verəcək ki, öz suveren öhdəliklərini həyata keçirsin, "Azərbaycanın tərkibində muxtar bölgə olan Naxçıvan tərəfdən Azərbaycan qüvvələrinin hücumu zamanı strateji Mehri istiqamətində özünün müdafiə qabiliyyətini artırsın". "Rus sərhədçilərdən qurtulma" tərəfdarları həmçinin "aktiv hərəkətlərə" keçməklə hədələyirlər. Bu, baş verərsə, o zaman onlara Gümrüdən rus hərbçilərini çıxarmağı tələb edənlər də qoşulacaq ki, bu da seçki ərəfəsində ölkədəki siyasi kəskin şəkildə pisləşdirəcək və olduqca həssas edəcək. İlk növbədə də nisbi daxili siyasi sabitlik və ölkənin müdafiə qabiliyyəti məsələlərində".

**Bu yerdə Rusiya nəşri işğalçı ölkəyə başqa, xəfif bir xatırlatma-xəbərdarlıq da edib:** "Bir neçə gün öncə Azərbaycanın Müdafiə Nazirliyi qarşılıqlı razılaşma əsasında Rusiyadan növbəti partiya silah-sursatın alınması haqda rəsmən məlumat yaydı. Heç şübhəsiz ki, bütün bu "mallar"qısa zamanda cəbhə xəttində yerləşən hərbi hissələrə veriləcək..."

*****

Qeyd edək ki, bu günlərdə bir sıra erməni ictimai-siyasi fəal və keçmiş hərbçilər bəyanatla çıxış edərək, 2018-20-ci illərdə Ermənistanın İran və Türkiyə ilə sərhədlərinin qorunmasının Rusiya FSB-dən (FTX) alınaraq, erməni sərhəd qüvvələrinə verilməsini tələb ediblər. "Yeni Müsavat" xəbər verir ki, bəyanatı imzalayanlardan biri - separatçı rejimin keçmiş "xarici işlər naziri" Armen Məlikyan deyib ki, bu məsələyə xüsusi diqqət verirlər.

"Çünki "2-4 ilə Rusiyanın bütövlükdə regiondan çıxıb getmək zorunda qalacağı ehtimalı böyükdür. Ancaq bu, bizim uğrunda çalışmalı olduğumuz bir məsələ deyil. Bununla belə, zaman keçdikcə ehtimal artacaq. Belə vəziyyətdə öz sərhədlərimizə keyfiyyətli nəzarəti öz üzərimizə götürməməyimiz uzaqgörənlik olmazdı", - deyə o bildirib və bunu da əlavə edib ki, bəyanat yaqin ki, belə bir şeyi təsəvvürə gətirməyənlərdə şok effekti yaradacaq.

**Maraqlıdır ki, məhz belə bir anti-Rusiya bəyanatının yayıldığı günlərdə də Rusiyadan Azərbaycana yeni partiya müasir silahlar və hərbi texnika gətirilib.**

**❑ "Yeni Müsavat"ın analitik şöbəsi**

# Moskva merinin erməni rəngi - qalmaqal

## Rusiya paytaxtında zibil qutularının üzərində Azərbaycan bayrağının rənglərinin olması ciddi etirazlar doğurdu

**Sosial şəbəkələrdə Moskvada zibil qutularının Azərbaycan bayrağının rənglərinə boyanması ilə bağlı məlumatlar paylaşılıb. Bu barədə məlumatı Moskvada yaşayan soydaşımız Pərviz Səfərov özünün facebook səhifəsində paylaşıb. O, zibil qutularının fotolarını Rusiya paytaxtındakı "Mega" Ticarət Mərkəzində çəkdiyini qeyd edib. Bu təxribatda Moskva meri Sergey Sobyaninin də iştirakı mümkün hesab edilir.**


Sergey Sobyanin

İddia olunur ki, zibil qutusunun üstündə yazılmış "Svet imeet znaçenie" ("Rəngin əhəmiyyəti var") yazısı bu hərəkətin təsadüfi olmadığını söyləməyə əsas verir.

Kiçik araşdırma apararaq öyrəndik ki, əslində rəngli zibil qutularına təkcə Moskvada deyil, elə Bakının özündə də rast gəlmək olur. Şəhərin bir çox yerlərində müxtəlif rənglərdə zibil qutularına rast gəlinir. Bu zibil qutularının fərqli rənglərdə olan hər gözünə müvafiq zibil atılır. Yəni məsələn, şüşələr göy rəngli gözə, kağızlar sarı rəngli qaba və sairə atılır. Hər birinin üzərində də "şüşə", "kağız" deyə qeydlər yazılır. Lakin Bakıda olan zibil qabları konkret olaraq bizim bayrağımızın rənginə boyanmayıb. Adətən burada sarı, çəhrayi, göy rənglər üstünlük təşkil edir. Moskvada isə açıq şəkildə bizim bayrağımızın rənglərinin zibil qutusunun üzərinə həkk olunması qəsdən edilmiş hərəkət kimi qiymətləndirilir. Məsələyə elə sosial şəbəkələrdə münasibət bildirənlər hesab edirlər ki, burada erməni diasporunun da əli var. Çünki daha əvvəllər də ermənilər tərəfindən Azərbaycanın atributlarına qarşı bu cür iyrənc addımlar atılıb.

Məsələ ilə bağlı öncə Xarici İşlər Nazirliyi ilə əlaqə yaratmağa cəhd etdik. Lakin əksər hallarda olduğu kimi nazirliyin mətbuat xidməti zənglərimizə cavab vermədi.

**Yeni Azərbaycan Partiyası (YAP) İcra Katibliyinin Siyasi təhlil və proqnozlaşdırma şöbəsinin müdiri, deputat Aydın Mirzəzadə report.az-a bildirib ki, zibil qutularının Azərbaycan bayrağının rəngləri ilə boyanması bizi hiddətləndirir:** "Bu, Azərbaycana qarşı təhqirdir. Düşünürəm, Rusiya bu problemi qısa zamanda həll edəcək".

**Deputat hesab edir ki, bu əməlin arxasında Azərbaycanı sevməyən qüvvələr dayanır: "Onlar yaxşı bilirlər ki, bu məsələ qıcıq yaradacaq. Onu da bilirlər ki, bu, uzunmüddətli qalmaz və aradan qaldırılacaq. Azərbaycanın dövlət quruculuğunda, beynəlxalq aləmdə qazandığı uğurlar bunu istəməyən qüvvələrdə narahatlıq yaradır".**

A.Mirzəzadə qeyd edib ki, bu cür təxribatlar Azərbaycan-Rusiya münasibətlərinə təsir edə bilməz: "Təxribatı törədənlərin məqsədi Azərbaycanda Rusiyaya qarşı narazılıq yaratmaqdır. Ola bilər, buna Rusiyadan yeni silahların alınması səbəb olub. Xaricdəki erməni diaspor dairələri bunu etməklə iki ölkə arasındakı dostluq münasibətlərini pozmağa çalışırlar. Çox istərdim ki, bu məsələ Azərbaycanın Rusiyadakı səfirliyinin və diaspor təşkilatlarının diqqətində olsun, bunu etməyə cəhd edənlər cəzalandırılsın. Problemin həlli uzanarsa, rəsmi müraciət edəcəyik. Amma əminəm ki, bu, elə bu gün həll ediləcək".

**"Yeni Müsavat"a danışan Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynov isə hesab edir ki, bu cür məsələlərdən hiddətlənməli deyilik. E. Hüseynovun fikrincə, ermənilərin də məqsədi elə budur ki, biz belə məsələlərə reaksiya verək:** "Məsələn, dolmanın davasını etmək ermənilərə sərf edir. Sabah onlar köftənin də davasını apara bilərlər. Bu cür yollarla millətin fikri əsas problemimiz olan Dağlıq Qarabağ münaqişəsindən ayrılır, yemək davasına keçir. Bu cür gedişatlar isə ermənilərin istəklərinə uyğundur. Amerika kimi super dövlətin bayrağını hətta alt paltarlarına, ayaqqabılara belə vururlar. Ancaq görürük ki, Amerika bundan qıcıqlanıb, reaksiyalar bildirmir. O baxımdan düşünürəm ki, belə məsələləri ictimailəşdirmək və gündəmə gətirmək lazım deyil. Əgər o cür boyayıblarsa, yenə də burada bir məqama diqqət etmək lazımdır. Belə ki, əslində rənglərin də müəyyən standartı var. Azərbaycan bayrağında da bu, belədir. Yəni rəngin tündlüyünün nə qədər olması standartlarla təsdiq olunub. Bundan başqa, bayrağın eninin, uzunluğunun da standartları qeyd olunaraq, təsdiqlənib. Ona görə də indi reaksiyalar verməkucuz vətənpərvərlik kimi qiymətləndirilə bilər. Zibil qablarında müəyyən standartlar da var. Ola bilər ki, Moskvada həmin yerdə standartları təsdiq etdiriblər. Ola da bilər ki, hansısa əraziyə baxan müvafiq qurum standartdan kənar zibil qablarını bu cür boyatdırıb. Standart əsasən zibil qablarının tutumu, hansı növ zibilin atılması ilə bağlı olur. Bu cür də bölgülər edilir. Rəng məsələsini isə təsdiq etdirirsən. Bu zaman rənglər yoxlanılır və daha sonra təsdiq edilir".

**❑ Əli RAİS, "Yeni Müsavat"**



# Nuhun gəmisi haqda həqiqətlər

Zamin HACI
zaminhaci@gmail.com

**Milli Elmlər Akademiyamızın işıq idarəsinə borcu varmış, montyorlar gəlib elektrik xətlərini, rəhmətlik Arabul demişkən, "dibindən" kəsiblər. Sonra borc ödənilib, artıq elm məbədimizdə qaranlıqlar dağılmışdır. Ancaq mən düşünürəm heç oranın elektrik kimi arxaik enerji növünə ehtiyacı yoxdur. Bizim alimlərin üzünün nuru nəinki idarəni, bütün kainatı işıqlandırmağa qadirdir. Hamısı ziyalı adamlardır. Orada mələyin uçma sürətini tapan alimdən başlamış Yerin öküzün və tısbağanın belində nəlbəki formasında olmasını isbata yetirmiş Əkrəm müəllimə, xiyardan Günəş enerjisi alan dahidən qarışqa minib çayı keçməyin üsullarını tapan akademikə qədər hər cür gözəl insanlar toplaşmışdır.**

Həmçinin, yaba ilə dovğa içməyin mümkünlüyünü sübut etmiş kulinarologiya alimi orda çalışır. Bu sıradan imamların kvant fizikasında rolunu araşdırmış hörmətli alim Rafiq Əliyevi xüsusilə qeyd etməliyik. Çoxdur, hamısını, əlbəttə, bir yazıda işıqlandırmaq çətindir. Həm də, açığı, bizim köşənin işıqlandırmağa görə borcu çoxalıbdır, qorxuram "Azərişıq" montyorları göndərə, köşəmiz qaranlığa qərq ola. O üzdən bir qədər işığa qənaət edirəm.

Eyni zamanda mən düşünürəm, bizim Türkiyə ilə "bir millət, iki dövlət" sayılmağımıza xal düşmək üzrədir. Neçə illərdir biz ora alim ixrac edirik, az qala hər Türkiyə universitetində 10 nəfər azərbaycanlı professor çalışır, lakin yenə ümumi səviyyədə axsama vardır. Bunun tipik örnəyi Nuh peyğəmbər ətrafında diskussiyalarda ortaya çıxıbdır.

Orda İstanbul Universitetindən Yavuz Örnək adlı bir professor kitab yazıbdır, Nuh tufanı haqda bildiklərimizi elmi yozmaq istəyibdir. Deyir, hesabladım, Yerdəki bütün suyu toplasan səviyyə ancaq 132 metr qalxar, bəs tufan zamanı qalan su hardandır? Guya kometin quyruğundan qopan sudur. Guya qalanı Yerin altından çıxıbdır. Bəs daşqın yatanda su hara gedib? Deyir Nuh peyğəmbər oğluna mobil telefonla zəng vurub xəbərdarlıq edibdir. Gəmi taxtadan yox, dəmirdən olub *(bəlkə də Mübariz Məsimovun "Palmali" şirkətindən arendaya götürüblər - Z.H.)* Çoxlu belənçik gülməli söhbətlər edir.

Doğrusu, mən buna baxandan sonra Türkiyəyə oxumağa göndərdiyimiz, böyük ümidlə arxalarınca baxdığımız burnufırtıqlı gənclərimizə yazığım gəldi. Bunlar bu gedişlə nə öyrənə bilərlər? Bakıda qalsalar milli akademiyamızın professorlarından daha geniş, daha dəqiq həyat, elm dərsləri alardılar.

Bu adamın savadsızlığı ilk növbədə ondan görünür ki, Nuh məsələsini bizim çözdüyümüzü bilmir. Artıq neçə illərdir Nuh peyğəmbərin qəbri Naxçıvanda təmir olunubdur, onu ziyarət eləməyə minlərlə adamlar gedir, misal üçün, yerli statkomun xəbərinə görə 2017-ci ildə Naxçıvana 500 minə yaxın turist gedibdir - az qala muxtar respublika əhalisinin sayı qədər.

O cümlədən, Nuhun gəmiyə hər canlıdan bir cüt, bizim məmurların isə hamısını ailəlikcə mindirdiyi, AXCP-Müsavat cütlüyünü heç mindirmədiyi, hazırda o gəminin qalıqlarının Ələt Beynəlxalq Dəniz Limanı akvatoriyasında saxlandığı məlumdur.

Qaldı su daşqından sonra hara gedib, bu bir az qəliz məsələdir, haqq üçünə etiraf etməliyik. Çünki biz özümüz də neçə illərdir Bakıya Kürdən, Ceyranbatandan, Oğuzdan, Qəbələdən, Amazondan, Nildən, Xuanxe çaylarından onlarla su kəməri çəkmişik, hər il "Azərsu"ya dövlət büdcəsindən, prezidentin ehtiyat fondundan, Dünya Bankından, Misir fironu 1-ci Amenhotepin xəzinəsindən, Bill Geytsin xeyriyyə fondundan və sairə saysız-hesabsız mənbələrdən vəsait ayrılır, ancaq paytaxtımızın su problemi həll olunub qurtarmır. Yəni, alimlər sayğac qoyub Bakının girəcəyində baxırlar ki, misal üçün, şəhərə saniyədə 50 kubmetr su girdi, camaatın içməyi, dəstəmazı, moykası, çimməyi-zadı bunun 10 kubunu apardı, qalanı bəs hara getdi, bax bunu öyrənmək mümkün deyildir.

Bəs Nuhun oğlu hansı mobil operatordan zəng edibdir, bunu ehtimal edə bilərik ki, "Baksel" olmuşdur. Xidmətin keyfiyyəti Nuh dövründəki kimidir indi də. Əslində bütün mobil operatorlarımız o cürdür. Adlarındakı "sel" sonluğu güman edirik həmin Nuh daşqınına işarədir.

Sonda uca millətə demək istərdim, uşağı göndərin Naxçıvanda oxusun.

---

**"Azərbaycanda erməniləri düşmən kimi qəbul edən yeni nəsil yetişir. Buna imkan verməməliyik". "Yeni Müsavat" xəbər verir ki, bu fikirlər Azərbaycanın Rusiyadakı fövqəladə və səlahiyyətli səfiri Polad Bülbüloğlu özünün sosial şəbəkələrdəki səhifəsində yazıb. Azərbaycanı Rusiyada təmsil edən diplomatın, üstəlik də əslən Şuşadan, illərdir Ermənistanın işğalı altında olan müqəddəs məkandan olan diplomatın belə mövqeyi birmənalı qarşılanmayıb. Xüsusilə də diplomatın işğalçı Ermənistanda anti-türk ruhunda böyüdülən nəsillərdən bəhs etmək əvəzinə, Azərbaycanda erməniyə düşmən ruhunda tərbiyə edilən nəslin olması mövqeyindən çıxış etməsi qəbulolunmaz sayılır.**



# Polad Bülbüloğlunun ermənilərlə bağlı mövqeyi kəskin etiraz doğurdu

## Rusiyadakı səfirimiz "Azərbaycanda erməniləri düşmən kimi qəbul edən yeni nəsil yetişir" dedi; Bakıdan çox sərt reaksiyalar...

"Polad bəy daha yaxşı nəğməkar idi. Elə əsl Bülbüloğlu idi. Öz sənəti ilə məşğul olsaydı, elə tarixdə onunla qalacaqdı. Diplomatiya onun sənətkarlığına xələl gətirdi. İndi o, Azərbaycan diplomatı kimi yox, müğənni kimi danışır. Müğənni üçün də auditoriyada, salonda, zalda milli kimlik önəmli deyil, musiqi, ona çalınan çəpik, gül-çiçək önəmlidir, vəssalam. Təəssüflər olsun ki, o, bir diplomat kimi Azərbaycanı təmsil edir, çox təəssüf. Həm də "xalq diplomatiyası" ilə məşğul olur".

**Bu fikirlərin müəllifi KXCP sədri Mirmahmud Mirəlioğlu "Yeni Müsavat"a dedi ki, milli kimlik başqa məsələlərdə heç bir rol oynamır:** "Adamın atası, anası gürcü, ya erməni də ola bilər və s. Amma hər kəs təmsil etdiyi dövləti ləyaqətlə təmsil etməlidir". **M.Mirəlioğlu bildirdi ki, yeni nəsil əslində savaşçı olmalıdır:** "Bir neçə gün bundan qabaq şəhidlərimizin ildönümünü və dəfninin 28-ci ildönümünü qeyd etdik. Normalda daha savaşçı, daha vətənpərvər, dostunu, düşmənini tanıyan nəsil yetişməlidir. Bu olmadıqca, Azərbaycana nicat yoxdur. Bu olmadıqca, Azərbaycan özünün müstəqilliyini qoruyub-saxlaya, ərazi bütövlüyünü təmin edə bilməz. Ərazilərimizin düşməndən təmizlənməsi nəğmələrlə olmur, silahla, vətənpərvərliklə olur, adam bunun fərqində olmalıdır".

**"Görünür, Polad Bülbüloğlu erməni ilə erməniçiliyi ayıra bilmir, ona görə belə düşünür. Biz "Böyük Ermənistan" ideyasının daşıyıcısı olan erməniçiliyə qarşı düşmənik, nəinki ermənilərə qarşı".**

**Bu fikirləri isə ADP sədri Sərdar Cəlaloğlu söylədi. Partiya rəhbəri qeyd etdi ki, erməni və erməniçiliyin başqa şey olduğunu bilmək lazımdır:** "Necə ki, rus başqa şeydir, rus şovinistliyi, "velikorus" başqa. Bu mənada biz ermənilərə yox, onların ideyalarına düşmənik. Çünki o ideya bizə qarşı yönəlib. Bizim ərazilərimizə, milli kimliyimizə, mədəniyyətimizə, əxlaqımıza iddia edirlər. Bunlar parazit bir xalqdır, tarix boyu yalnız türk xalqlarının əldə etdiyi tarixi nailiyyətlərdən oğurlayıb özləri üçün xalq obrazı yaratmaq istəyiblər, çünki bunların özlərinin heç nəyi yoxdur. Bunların nə arxitekturaları var, nə məişət mədəniyyətləri, nə kilsələri var. Erməni kilsəsinin qədim dili türk dilidir. Adicə Azərbaycan dilində olan dolma haqqında deyir ki, bu, erməni yeməyidir, ya lavaş ermənilərə məxsusdur. Yaxud musiqimizi oğurlayır, deyir "Sarı gəlin" bizimdir. Səbəbi budur ki, özlərininki yoxdur, oğurlayırlar. Belə bir oğru düşüncəyə, oğru fəlsəfəyə düşmən olmamaq mümkün deyil ki. Məsələn, Polad Bülbüloğlu cibindən 5 manatı oğurlayana deyəcək ki, sən yaxşı oğlansan? İndi bu, sənət adamıdır. Mən onu dərin biliyə, siyasi təfəkkürə malik adam hesab eləmirəm. Amma bu adam bəzi şeyləri bir-biri ilə qarışdırır". **S.Cəlaloğlu səfirin mövqeyinə əks fikir bildirdi:** "Bəli, erməniçiliyə qarşı Azərbaycanda düşmənçilik tərbiyə olunmalıdır, dövlət səviyyəsində bu siyasət aparılmalıdır. Çünki türk xalqlarının bu bölgədə mövcudluğunun ən böyük təhlükələrindən biri də erməniçilik, "Böyük Ermənistan" ideyasıdır. Çünki ermənilər başqa dövlətlərin əlində alətə çevrilib. Necə ki, kürdlər ABŞ-ın, başqa dövlətlərin əlində oyuncağa çevrilib, məhv olub gedirlər, ağılları başlarına gəlmir, düşünmürlər ki, bu siyasət onların əleyhinədir, eləcə də ermənilər. Baxın, ermənilər müstəqil ola bilmirlər. Sən necə "Böyük Ermənistan" yaradırsan ki, Rusiyadan qopa bilmirsən? Sən hələ əvvəlcə kiçik Ermənistanı müstəqil et, sonra de ki, mən bunu böyüdürəm. Biz bunlarla əlbəttə ki, düşmən olmalıyıq. Özü də düşmənçilik pis şey deyil ki. Necə ki, ruslar, farslar turançılığa, ruslar faşizmə, almanlar "velikorus" şovinizminə qarşı düşmənçilik aparır. Xiyabaninin gözəl bir sözü var idi, deyirdi dövrünün qabaqcıl insanının düşməni adamlar yox, onların daşıdığı ideyalardır. Biz ermənilərə yox, ermənilərin daşıdığı ideyaya düşmənik, düşmən olmalıyıq, Polad Bülbüloğlu da düşmən olmalıdır, bunu başa düşməlidir. Azərbaycan dövlətini səfir kimi təmsil edir, amma hələ bilmir ki, erməni ilə erməninin daşıdığı ideyanın nə fərqi var?"

**Əslən Xocalıdan olan deputat Elman Məmmədov "Yeni Müsavat"a bildirdi ki, hərənin öz fikri var:** "Heç kimə demək olmaz ki, sən niyə belə düşünürsən, niyə belə deyirsən? Təbii ki, Polad müəllim ziyalı, tanınmış insandır. Eyni zamanda bizi Rusiyada təmsil edən diplomatımız, fövqəladə və səlahiyyətli səfirimizdir. Yəqin ki, o, özünə xas şəkildə, cəmiyyətdəki mövqeyinə, vəzifəsinə görə deyir. Mən bu barədə bir söz deyə bilmərəm. Ancaq mənim fikrimi soruşursunuzsa, mən çox sevinərəm ki, biz nəhayət, Azərbaycanda ermənilərə düşmən kimi baxan çox qətiyyətli, iradəli və mövqeyindən dönməyən bir nəsil yetişdirə bilək. Biz tarix boyu belə düşünmüşük: "Mən səni sevəcəyəm, sən sevməsən də". Mənim qardaşım, ermənilər bütün tarix boyu türkə, müsəlmana düşmən kimi baxıblar. Türk adı gələndə bunlar ancaq düşməni nəzərdə tutub. Yeni mövqeyindən, yanaşmasından asılı olmayaraq, bütün türkləri düşmən biliblər". **E.Məmmədov ermənilərin türklərə qarşı münasibətinin dəyişməz olduğunu qeyd etdi:** "Hətta bu yaxınlarda onlarla əməkdaşlıq edən, Dağlıq Qarabağa qanunsuz gələn bir qrup türkə də - onlar da elə erməni kimi olsa da - düşmən kimi yanaşdılar. Yəni türkdürsə, deməli, düşməndir. Bəs nə üçün bütün tarix boyu bizə qarşı bu qədər faciələri, soyqırımları törədən, başımıza bu oyunları açan, torpaqlarımızı işğal edən tör-töküntülərə, etnik qrupa, etnosa düşmən kimi baxmayaq? Nə üçün biz bunları dost kimi qəbul etməliyik? Bunlara düşmən kimi baxmaq nə vaxtdan qəbahət hesab olunub. Mən Elman müəllim kimi, biz azərbaycanlı millət vəkili kimi deyirəm ki, mən çox sevinərəm ki, Azərbaycanda yalandan, çöldən-çölə yox, həqiqətən, özünün bütün varlığı, iradəsi, bacarığı, dünyagörüşü ilə işğalçı erməniləri düşmən hesab edən bir nəsil yetişsin. Ermənilərə biz də düşmən kimi baxa bilək və onunla düşmən kimi davranıb düşmənin üzərində qələbə çalmaq əzmi ilə yaşayaq, bu hiss də bizi sonda qalib eləsin. Kim nə cür fikirləşir, özü bilər, mənim fikrim budur".

**QAT sədri Akif Nağı isə dedi ki, Polad Bülbüloğlu yanlış fikir səsləndirib:** "Onun kimə xidmət etdiyi məlum deyil. Ermənilərə nifrət edən nəslin yetişməsinin günahkarı biz deyilik, torpaqlarımızı işğal edən, Xocalıda və digər ərazilərdə qətliamlar törədən erməni faşistlərinin günahıdır. Bu nifrətin olmaması üçün düşmən işğal etdiyi ərazilərimizdən çıxmalı, törətdiyi cinayətlərə görə xalqımızdan üzr istəməlidir".

**Səfirin mövqeyini də dərc etməyə hazırıq.**

**Cavid TURAN,**
**"Yeni Müsavat"**

**2018-ci ilin oktyabrında olacaq prezident seçkilərinin sabit, gərginliklər yaşanmadan keçəcəyi proqnozları verilməkdədir. Artıq bir sıra siyasətçilər bu barədə mövqelərini ifadə ediblər. Hələlik ən son olaraq bu cür proqnozu Ümid Partiyasının sədri İqbal Ağazadə "Yeni Müsavat"a geniş müsahibəsində verib.**



Qabil Hüseynli

# Seçki ərəfəsi sabitlik, yoxsa qarışıqlıq olacaq?

## **Tanınmış politoloq:** "Seçkidə ehtirasları qızışdıran, ortamı gərginləşdirən hansısa hadisənin baş verəcəyinin..."

Bəs ölkədə seçkinin sabit keçəcəyini təmin edən, eyni zamanda qarşıdurmalarla müşayiət olunacağını tətikləyən amillər varmı?

**Politoloq Qabil Hüseynli** "Yeni Müsavat"a öncə bildirdi ki, əslində Azərbaycanda seçki hazırlıqlarına start verilib və bugünkü ictimai-siyasi ab-havanı nəzərə alsaq, seçkinin sakit keçəcəyini söyləmək üçün kifayət qədər əsaslar var: "Mərkəzi Seçki Komissiyası seçkilərə hazırlıq işlərinə başlayıb. Seçkilərə hazırlıq işinin birinci mərhələsi seçici siyahılarının dəqiqləşdirilməsidir. Mətbuat səviyyəsində isə ara-sıra yazılan yazıları nəzərə almasaq, seçkilərlə bağlı polemikalar getmir. Əksər siyasi partiyalar və siyasi təşkilatlar da öz namizədlərini açıqlamayıblar. Düzdür, oktyabr ayına qədər hələ xeyli vaxt var, Azərbaycanda seçkilərin ən qızğın dövrü adətən avqust ayından sonra başlayır. Amma hər halda, indiyə qədər namizədliyə iddialılar öz iddialarını ortaya qoymalı idi. Bir neçə partiya sədrini çıxsaq, heç kim seçkidə namizədliyini irəli sürmək niyyətini açıqlamayıb. Hakim partiyanın namizədinin kim olacağı isə artıq demək olar bəllidir. Hazırkı prezident İlham Əliyevin seçkilərdə iştirak edəcəyi bəllidir deyə bilərik. Artıq YAP bu istiqamətdə işlərini qurmağa başlayıb. İqbal Ağazadə əslində düzgün proqnoz verib. Seçki sakit, gərginliklərin yaşanmadığı şəraitdə keçəcək. Çünki seçkilərdə qarşıdurma, gərginlik yaradacaq situasiya bu gün görünmür. Seçki prosesinə əlavə stimul gətirə biləcək adamlar da hələ ki ortalıqda görünmür. YAP-ın namizədi kifayət qədər güclü və rəqibsiz görünür. Bu faktor da seçkinin kifayət qədər sakit, qarşıdurmalar olmadan keçirilməsinə zəmin yaradır. Ölkədə doğrudan da bir ictimai-siyasi sabitlik var, son dövrlərdə neftin qiymətinin artması, aparılan bir sıra islahatlar inflyasiyanın və manatın sabitləşməsinə gətirib çıxarıb ki, bu da əhali arasında müəyyən əhval-ruhiyyə sabitliyi yaradır. Bu amil də seçkilərin qarşıdurmasız, sakit keçməsini təmin edir. Bir sözlə, seçkidə ehtirasları qızışdıran, ortamı gərginləşdirən hansısa hadisənin baş verəcəyinin mümkünlüyü də bu gün üçün baxanda gözə görünmür".

**Politoloq həmçinin dedi ki, gərginlik yaratmaqda bəzi xarici güclərin maraqlı olacağı və cəhdlər edəcəyi ehtimalı yox deyil:** "Gərginliyi tətikləyəcək hadisələrdən danışarkən, əlbəttə, birinci növbədə xarici amili nəzərə almalıyıq. Burada Rusiya amili də, ABŞ amili də müəyyən rol oynaya bilər. Ona görə də biz amillərin rolunu həddən artıq şişirtmədən, eyni zamanda onunla ehtiyatlı olmağın da vacibliyini vurğulamalıyıq. Çünki Azərbaycanda hadisələrin inkişaf meylinə təsir edən ən güclü amillərdən biri Rusiya amilidir. Son zamanlar isə belə görünür ki, Rusiya amilindən başqa Amerika amili də proseslərə öz təsirini göstərməyə çalışa bilər. Hadisələrin gələcək inkişafında bu faktorların əhəmiyyətli rol oynaya biləcəyini bəri başdan ehtimal kimi dilə gətirmək ölkənin maraqları baxımından lazımdır.

Seçkilərə hələ 9 aya yaxın vaxt qaldığı üçün dəqiq proqnozlar vermək asan deyil. Amma seçkiyə yaxınlaşanda seçkinin necə keçəcəyi ilə bağlı daha dəqiq, daha birmənalı fikirlər söyləmək olar".

❑ **Etìbar SEYİDAĞA,**
**"Yenì Müsavat"**

# İspaniya separatizmi məhv edir-Dağlıq Qarabağla bağlı da dünya birliyi bu cür etsəydi...

## **Elçin Mirzəbəyli:** "Dövlətin təhlükəsizliyinə qarşı çıxış edənlərin başını əzmək lazımdır ki..."
## **Nəzakət Məmmədova:** "Qarabağda da Azərbaycan bu cür sərt tədbirlər görsəydi..."



Elçin Mirzəbəyli



Nəzakət Məmmədova

**Ötən ilin oktyabrında İspaniyanın Kataloniya vilayətinin keçirdiyi müstəqillik referendumundan sonra ispan hökumətinin separatçılara qarşı həyata keçirdiyi tədbirlər davam edir. Bu ayın əvvəllərindən isə separatçılara qarşı daha sərt tədbirlərə start verilib.**

Doğrudur, hələ də separatçı bölgənin rəhbəri Karles Puçdemon həbs edilməyib, amma demək olar ki, onun ətrafı və referendumda aktiv iştirak edən hər kəs məsuliyyətə cəlb olunub. Separatçılar ya həbs edilir, ya da daha sərt hücumlara və cəza tədbirlərinə məruz qalırlar. Dünya birliyi də referendumda olduğu kimi, hazırda keçirilən tədbirlərdə də ispan hökumətinin yanındadır. Bütün bunların doğru olub-olmaması ilə bağlı fikirlər birmənalı olmasa da, əksəriyyət separatçılıqla məşğul olan hər kəsin məsuliyyətə cəlb olunmasını doğru sayır.

Bütün bunlar ermənilərin yaratdığı qondarma "Dağlıq Qarabağ Respublikası"nı gündəmə gətirib. Müstəqil ekspertlər bildirirlər ki, vaxtilə dünya birliyinin Kataloniya ilə bağlı mövqeyini Dağlıq Qarabağla bağlı da sərgiləsəydi, bugünkü durum yaranmazdı.

**Politoloq Elçin Mirzəbəyli Kataloniya separatçılarına qarşı həyata keçirilən tədbirləri doğru sayır:** "Hüquqi baxımdan İspaniyanın atdığı bütün addımlar doğrudur. İspaniya hökuməti ölkə konstitusiyasının tələblərinə və Ali Məhkəmənin Kataloniyada keçirilən qondarma referendumla bağlı qərarına uyğun şəkildə hərəkət edir. Kataloniyada baş verən hadisələr sübuta yetirdi ki, separatçılarla "evcik-evcik" oynamaq lazım deyil. Dövlətin ərazi bütövlüyünə, təhlükəsizliyinə qarşı çıxış edənlərin başını əzmək lazımdır ki, başqaları da boy göstərməsinlər. Məsələnin digər tərəfi isə İspaniyanın da üzv olduğu Avropa İttifaqının son zamanlaradək Aİ-nin sərhədlərindən kənarda baş verən separatçı hərəkatlara münasibətdə ikili standartlardan çıxış etməsidir. Amma son zamanlar Avropa Birliyinin ayrı-ayrı strukturlarının qəbul etdiyi sənədlərdə separatizmə münasibət xeyli kəskinləşib, ərazi bütövlüyü ilə xalqların öz müqəddəratını təyinetmə prinsipləri arasında manipulyasiyalar xeyli azalıb. Avropalılar separatizm təhlükəsini öz evlərində hiss edəndən sonra başqalarını da anlamağa başlayıblar. Azərbaycan separatizmə qarşı ən sərt və birmənalı münasibət bəsləyən ölkələrdən biri və birincisidir. Azərbaycan uzun illərdir ki, ən yüksək tribunalardan separatizmə münasibətdə ikili standartların tətbiqinin yolverilməz olduğunu, bunun bütün bəşəriyyət üçün fəlakətə çevrilə biləcəyini deyir. Zaman ölkəmizin haqlı olduğunu dəfələrlə sübuta yetirib. İspaniyada baş verənlər isə bir Avropa İttifaqı ölkəsində cərəyan etdiyi üçün "soyuq su" effekti yaratdı. Ayrı-ayrı ölkələrdə yaşayan etnik azlıqları heç bir əsas olmadan "müdafiə etməklə", ən önəmsiz hadisənin ətrafında siyasi şoular düzənləməklə həmin ölkələrdə öz nüfuz müvəkkillərini yetişdirməyə çalışanlar bu yanaşmanın bumeranq effekti verdiyinin şahidi oldular. Kataloniyada separatçılara qarşı sərt tədbirlərin həyata keçirilməsi və Avropa İttifaqının mərkəzi strukturlarının, beynəlxalq təşkilatların baş verənləri İspaniyanın daxili işi kimi dəyərləndirməsi, şübhəsiz ki, ciddi hüquqi president yaradır".

**Siyasi şərhçi Nəzakət Məmmədova proseslərin İspaniyaya ciddi zərbə vurduğunu söylədi:** "İspaniyada baş verən separatizm dalğası artıq Avropa Birliyini ciddi şəkildə narahat etməyə başlayıb. Çünki bu meyl Avropanın digər ölkələrinə də yayılaraq son nəticədə birliyin zəifləməsinə gətirib çıxara bilər. Xüsusilə də İngiltərənin "Brexit" məsələsindən sonra bu, Avropa Birliyini parçalanmaya aparacaq bir hadisə hesab olunur. Artıq Fransa da bu prosesdən narahat olmağa başlayıb. Çünki tarixi Kataloniyanın bir hissəsi indiki Fransa ərazisinə daxil olub. ABŞ-dakı prezident seçkiləri, Almaniyada parlamentə radikal partiyanın daxil olması, Fransada Le Penə dəstək verilməsi, İngiltərədə Brexit kimi məsələlərdə olduğu kimi yenə də Rusiya proseslərə kibermüdaxilədə ittiham olunur. Rusiyanın AB-ni parçalamaq planlarının tərkib hissəsi görülən bu hadisədə ABŞ da ittiham olunur. Lakin bir fakt dəqiqdir ki, separatizm və referendum İspaniyanın beynəlxalq imicinə mənfi təsir göstərməklə yanaşı, ölkə büdcəsinə də 1 milyard dollara yaxın zərər vurub. Ölkə əhalisinin 16 faizinin yaşadığı Kataloniya bölgəsi İspaniyanın ümumdaxili məhsulunun 20 faizinə malikdir. İspaniyanın ən inkişaf etmiş bölgəsidir. Burada yayılan separatizm ölkəyə xeyli zərər vurur. Avropa Birliyinin bu məsələdə İspaniyanı dəstəkləməsi aydın görünür. Çünki birlik separatizmin yayılmasından narahatdır. Əks halda, İspaniya polisinin müəyyən zorakılıq hərəkətlərinə qınama olardı. Amma əksinə, Avropa Birliyi Şərq Tərəfdaşlığı Proqramının son sammitində münaqişələrin ərazi bütövlüyü və sərhədlərin toxunulmazlığı çərçivəsində həlli prinsipini bəyan edən sənədi qəbul etməklə separatizmə olan münasibətini ortaya qoydu. Düşünürəm ki, dövlət bu cür addımlar atmaqla doğru hərəkət edir. Çünki vaxtında bu cür xaosun qarşısı alınmazsa, sonradan daha böyük problemlər baş verə bilər. Bir qrup separatçı ucbatından münaqişə və müharibələr alovlana bilər. Bu prosesə dəstək verilərsə, o zaman dünya nizamı yenidən qurulmalıdır, dövlətlərin sərhədləri dəyişdirilməli, hər bir etnik xalq özünə dövlət qurmalıdır. Bu isə sonsuz müharibələrə, silahlı qarşıdurmalara, milyonlarla insanın həyatını itirməsinə səbəb ola bilər. Əgər vaxtında Qarabağda da Azərbaycan bu cür sərt tədbirlər görsəydi, indi nə Qarabağ münaqişəsi olardı, nə bir milyon insan qaçqına çevrilərdi, nə də üzləşdiyimiz problemlərin heç bir olmazdı".

❑ **Cavanşir ABBASLI,**
**"Yenì Müsavat"**

**Dağıstan paytaxtının meri Musa Musayevin həbsi qonşu respublikada geniş rezonans doğurub. Belə ki, milliyyətcə dargin olan Musa Musayev Dağıstanda nüfuz sahibidir. Onunla bağlı istintaq araşdırmalarının getdiyi xəbəri yayılandan sonra son ana qədər kimsə Musa Musayevin qandallanacağına inanmayıb. Yanvarın 19-da onun iş yerində və mənzillərində istintaqçılar axtarış aparıblar. İstintaqçılar Musa Musayevin Mahaçqala meriyasındakı kabinetinə axtarış üçün gələrkən, o, qapını bağlayaraq istintaq hərəkətlərinə mane olub.**

# Dağıstanın azərbaycanlı kökənli rəhbəri məmur həbslərinə başladı

## Dərbənddə yaşayan həmyerlilərimiz Vladimir Vasilyevin gördüyü işlərdən razıdırlar


Musa Musayev


Vladimir Vasilyev

Buna baxmayaraq, onun kabinetinin qapısı sındırılıb və oradan sənədlər götürülüb. Kabinetindən əli qandallı çıxarılan Musa Musayev məhkəməyə aparılıb və barəsində 10 günlük həbs-qətimkan tədbiri seçilib, istintaq təcridxanasına yerləşdirilib. Onun barəsindəki qətimkan tədbirinin müddətinin uzadılacağı da istisna deyil. Musa Musayev dövlətə məxsus torpaq sahəsini tikinti şirkətlərindən birinə 1 milyon rubl rüsum qarşılığında verib. İstintaqçılar onun bu hərəkətinin qanunsuz olduğu qənaətindədirlər. Müstəqil qiymətləndiricilər həmin torpaq sahəsinin real bazar dəyərinin 81 milyon rubl olduğu haqda rəy veriblər. Hazırda Dağıstanda Rusiya İstintaq Komitəsinin 38 nəfərlik qrupu araşdırma aparır. Qrup üzvləri Dağıstanda ayrı-ayrı rayonların rəhbərlərinin fəaliyyətini yoxlayır və müvafiq addımlar atılır.

Belə məlumatlar da var ki, mart ayında Rusiyada keçiriləcək prezident seçkilərindən sonra Dağıstanda bir çox rayonların rəhbərləri dəyişdiriləcək. Hazırda Dağıstan başçısı vəzifəsini Vladimir Vasilyev müvəqqəti icra edir. Onun prezident seçkilərindən sonra başçı vəzifəsinə təsdiqlənəcəyi də gözlənilir. Vladimir Vasilyevin təyinatına qədər Dağıstana əsasən 3 xalqın avar, dargin və kumıkların nümayəndələri rəhbər təyin olunublar. 1945-ci ildən 1948-ə qədər Dağıstan rəhbəri azərbaycanlı Əziz Əliyev olub. Ötən ilin oktyabrında Ramazan Abdulatipov istefaya göndəriləndən sonra onu bu postda ləzgi Sergey Məlikov və ya dargin Maqomedsalam Maqomedovun əvəzləyəcəyi gözlənilirdi. Amma çoxillik təcrübə kənara qoyuldu və Vladimir Vasilyev Dağıstana rəhbər gətirildi. Rusiya daxili işlər orqanlarında yüksək vəzifələr tutmuş, nazir müavini vəzifəsinə qədər yüksəlmiş polis generalı Vladimir Vasilyevin atasının azərbaycanlı olması haqda da məlumatlar var. Musa Musayevin həbsindən bir neçə gün əvvəl isə Dağıstan Ali Məhkəməsi onun oğlunun yol patrul xidmətinin əməkdaşını döyməsi işi üzrə aşağı məhkəmə instansiyasının bəraət hökmünü ləğv edib. Yaxın günlərdə Musa Musayevin oğlunun da hakimiyyət nümayəndəsinə zor tətbiq etmə maddəsi ilə həbs ediləcəyi gözlənilir.

Dağıstanda baş verənlərin yeni rəhbərin iradəsinə əsasən gerçəkləşdiyi də qeyd olunur. Son iclaslardan birində V.Vasilyevin Dağıstanda torpaqlarla bağlı qəbul edilən qərarları məmurların vəzifə səlahiyyətlərini aşmaqla qəbul etdiklərini xüsusi olaraq vurğulayıb. Mahaçqalada necə gəldi tikintilərin aparılması üzündən qar və yağış zamanı təbii fəlakətlərə gətirib çıxardığını deyib. Bildirib ki, Mahaçqala merinin barəsində başladılmış cinayət işi bu sferada vəziyyətin yaxşılaşmasına xidmət edir. V.Vasilyev Dağıstanda məmurlara tövsiyə edib ki, kimsə xidmətlərinə, mənsubiyyətinə arxayın olmasın. Dağıstanda yaşayan həmyerlilərimiz deyiblər ki, V.Vasilyevin təyinatından ötən qısa müddətdə qanunçuluğun bərqərar olunması istiqamətində atılan addımlardan razıdırlar.

❑ **E.HÜSEYNOV,**
**"Yeni Müsavat"**

# İranda "daxildə satqın" axtarışı - ilginc gəlişmələr

## Ruhani komandası çətin sınaq qarşısında; dini lider orduya "iqtisadiyyatdan çəkilin" əmri verdi

**İran prezidenti Həsən Ruhani ölkədəki vəziyyətlə bağlı suallara cavab verib, bir sıra aktual mövzulara münasibət bildirib. "Tasnimnews" agentliyinin məlumatına görə, ölkənin valyuta ehtiyatlarının azalması ilə bağlı iddiaları təkzib edən Ruhani İranın ötən il neft və neft məhsullarının ixracatından 90 milyard dollar gəlir əldə etdiyini bildirib. Ancaq bildirib ki, hələ də embarqoların mənfi təsirləri səbəbindən dünya bankları ilə əlaqələrdə problemlər qalır.**



İran prezidenti deyib ki, seçki kampaniyası zamanı vətəndaşlara verdiyi vədlər sırasında təhlükəsizlik, sülh, azadlıq və inkişaf kimi məsələlər olub. O, verdiyi vədlərin arxasında olduğunu, ölkədə əmin-amanlığın pozulmasını istəmədiklərini, ancaq eyni zamanda xalqın konstitusiyaya uyğun etirazları ilə bağlı hər hansı narahatlığın olmadığını deyib. Lakin əlavə edib ki, xalqı daha çox təhlükəsizlik məsələləri narahat edir. Həsən Ruhani işsizliyin aradan qaldırılması, yoxsulluğun ləğvi istiqamətində fəaliyyətlərinin davam etdiyini bildirib.

***

Hazırda İranın daxili siyasətində vəziyyət elə də sakit deyil. Aksiyalar başa çatsa da, doğurduğu təsirlər hələ də müzakirə olunur və belə görünür, siyasi proseslərə ciddi təsirləri olacaq. Son günlər baş verən iki əsas hadisə etirazların nəticələrinin hələ də dövlətin alt qatında ciddi müzakirə edildiyini sübut edir. Bunlardan biri bir neçə gün əvvəl ölkənin ən ali dövlət qurumu olan İslam Respublikası Nizamın Faydasını Məsləhət Şurasında keçirilən toplantıdır. Maraqlıdır ki, toplantı ilə bağlı şəkillər yayılsa da, geniş məlumat yoxdur. Bu toplantının maraqlı edənsə bu ayın əvvəli Almaniyada müalicəsini yarımçıq qoyub qayıdan Məsləhət Şurasının sədri Ayətullah Seyid Mahmud Haşimi Şahrudinin iştirak etməsi və onunla birlikdə son İran aksiyalarının qızışdırılmasında ittiham olunan eks-prezident Mahmud Əhmədinejad və Məşhəd şəhərində yerləşən İmam Rza (ə) Hərəminin müdiri, prezidentliyə keçmiş namizəd Seyid İbrahim Rəisinin iştirak etməsi olub. İran mediası bu görüş barədə yazılar yazmağa həvəs göstərməyib, ancaq hər kəsə aydındır ki, adıçəkilən iki şəxsin adı Məşhəddən başlayan etirazların qızışdırılmasında hallanıb. Ehtimal ki, Şura bu şəxslərə hansısa xəbərdarlıq edib və ya ifadələrini alıb.

İran etirazlarının daha bir təsiri isə bir neçə gün əvvəl ordunun iqtisadi sahədən çəkiləcəyi ilə bağlı xəbərin yayılmasıdır. Doğrudur, bu mövzuda da İran mediası yazmağa xəsislik edir. Müdafiə naziri general Hatəmi bildirib ki, ali dini liderin göstərişə əsasən silahlı qüvvələr *(burada söhbət daha çox əsasən muxtar qurum olan SEPAH-dan gedir - K.R.)* iqtisadi, istehsal fəaliyyətlərindən imtina edir. ISNA Agentliyinin xəbərində qeyd olunur ki, bu ilin sonuna qədər orduya bağlı şirkətlər özəlləşdiriləcək və silahlı qüvvələr istehsal firmalarından imtina edəcək. Nazir deyib ki, silahlı qüvvələr ən tez müddətdə sərmayə bazarını tərk edəcək. Nazir bəzi şirkətlərin adlarını da qeyd edib.

Hər iki hadisə İran siyasətində ciddi hadisələrin baş verdiyinin sübutudur. Birincisi, rəsmilər göstərir ki, hakimiyyət son etirazlarda daxildəki "satqınların" axtarışındadır və hadisələrin qızışmasında əli olanlar cəzalandırılacaq. İkinci hadisə isə əslində İranın hazırkı sistemi daxilində inqilabi prosesdir. Hərçənd ki, hələlik bu prosesin necə gedəcəyi məlum deyil.

Məsələ ondadır ki, Yaxın Şərqin bir çox dərin milli dövlətləri kimi İranda da ordu uzun illər "dövlət içində dövlət" kimi fəaliyyət göstərib. Oxşar sistem Misirdə, Türkiyədə də fəaliyyət göstərib. Bu ölkələrdə ordu daxilində muxtariyyətə sahib olub, özünün nəzarət etdiyi iqtisadi sahələr, istehsalat müəssisələri, xidmət və digər gəlir sahələri olub. Bu həm də ordunun daşıdığı missiya ilə əlaqələndirilib. İranda da SEPAH (İnqilab Keşikçiləri Korpusu - K.R.) şəxsində ordu nisbətən muxtar olub, birbaşa dini liderə tabe olan bu qüvvələrin özünün istehsal və sənaye müəssisələri, maliyyə gücü olub. Məsələn, adı gizli neft ticarətində hallanan Babək Zəncaninin də ordu iqtisadiyyatı ilə əlaqəli olduğu və məhz bu səbəbdən Ruhani hökuməti zamanı ifşa edilərək məsuliyyətə cəlb olunduğu bildirilirdi. Bu səbəbdən də hazırkı "islahatçı" hökumət zamanı ordunun iqtisadi bağları ciddi şəkildə tənqid olunub, ölkə iqtisadiyyatının inkişafdan geri qalması, azad iqtisadiyyatın olmamasında bu amil qabardılıb.

Ancaq indi gözlənilmədən SEPAH üzərində hüquqi və mənəvi rəhbərliyə malik olan ali dini lider göstəriş verərək ordunun iqtisadi sektordan çəkilməsini əmr edib. Doğrudur, bu əmrin icrasının nə qədər vaxt tələb edəcəyi ayrı mövzudur. Üstəlik, iqtisadi sektorda kök atmış ordunun burdan tamamilə uzaqlaşması da ciddi sual doğurur. Ancaq fakt odur ən üst məqamdan bu barədə əmr gəlib və müdafiə naziri bunu rəsmən elan edib. Deməli, istənilən halda ordu çəkiləcək.

Maraqlıdır ki, bu xəbərin yayılması qarşı cinahda ciddi məyusluq yaradıb. Çünki "islahat" komandasının əsas arqumentlərindən biri vurulub. Həm də bu qərar ordunun mövqeyini gücləndirir. Daha bir ittihamdan xilas edir. Çünki SEPAH İran siyasətində güclü təsir mərkəzlərindən biridir, dini hakimiyyətin əsas dayağı hesab olunur.

Son hadisələr göstərir ki, İran daxilində siyasi mübarizə daha da güclənəcək. Son aksiyalar zamanı mühafizəkar camiədən bir neçə şəxsə ciddi zərbə dəysə də, görünür ki, növbəti seçkilərdə "islahat" camiəsi ciddi səs itirəcək. Bu proseslərdə müşahidə olunan daha bir maraqlı məqam dini liderin siyasi proseslərə qatılması, hər iki camiəyə eyni məsafədə dayanması oldu. Bu da siyasi mübarizədə hər iki cinah üçün qələbə ümidlərini ölməyə qoymur.

❑ **Kənan RÖVŞƏNOĞLU,**
**"Yeni Müsavat"**

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi



Yeni MÜSAVAT
N 17 (6906) 24 yanvar 2018



**Yanvarın 1-dən İtaliyanın ATƏT-də bir illik müddətinə sədrliyi başlayıb. İtaliyanın xarici işlər naziri Angelino Alfano bununla bağlı bildirib ki, həll olunmamış Dağlıq Qarabağ problemi də ATƏT-in icraçı sədri kimi İtaliyanın diqqətində il ərzində prioritet məsələ qismində olacaq.**




# ATƏT, AŞ PA rəhbərliyi italyanlara, BMT TŞ sədrliyi qazaxlara keçdi - Qarabağı nə gözləyir?

## Minsk Qrupunun aktiv üzvlərindən olan İtaliya konfliktin həllinə töhfə verə bilər; **türkiyəli deputat:** "Nikolettinin prezidentliyi Türkiyə və Azərbaycan üçün uğurlu olacaq"; **politoloq:** "Qazaxıstanın BMT TŞ-yə sədrliyi dövründə Qarabağ məsələsinə xüsusi diqqət göstəriləcək"

"Yeni Müsavat" xatırladır ki, bu ölkə ATƏT-in Minsk Qrupunun fəal üzvlərindən biridir və Dağlıq Qarabağ məsələsində kifayət qədər obyektiv mövqe sərgiləyir. İtaliya həmçinin Avropa Birliyində mühüm söz sahibi olan dövlətlərdəndir. Bu mənada postsovet məkanındakı ən uzun və üzücü bir konfliktin nizamlanması prosesinə rəsmi Romanın real töhfə verəcəyini ümid eləməyə əsaslar var.

Hərçənd Dağlıq Qarabağ münaqişənin həllində Rusiya hələ ki həlledici söz sahibliyini saxlayır. Yəni Moskvanın əngəlləri olmazsa, İtaliyanın sülh təşəbbüsləri real nəticə verə bilər. Situasiyanın bir özəlliyi də odur ki, İtaliya Avropa Birliyi ölkələri arasında Rusiya ilə daha yaxın münasibətlərə malikdir.

*****

Qarabağ məsələsində siyasi aktivliyin artması baxımından pozitiv yeniliklərdən biri də Azərbaycana dost və strateji tərəfdaş ölkələrdən olan Qazaxıstanın bu ildən etibarən rotasiya qaydasında BMT Təhlükəsizlik Şurasına rəhbərliyə başlamasıdır. Bu türkdilli dövlət qardaş Türkiyə və Rusiya arasında məlum təyyarə insidentinə görə iki il öncə yaşanan böhranın aradan qaldırılmasında və barışıq əldə olunmasında Azərbaycanla birgə həlledici rol oynamışdı.

Artıq işğalçı Ermənistan bu yenilikdən əndişə keçirməyə, rəsmi Astananın Dağlıq Qarabağ məsələsini Təhlükəsizlik Şurasının gündəminə gətirəcəyindən və Azərbaycanı ərazi bütövlüyünün pozulduğu faktını beynəlxalq ictimaiyyətin qarşısında qaldıracağından narahat olmağa başlayıb. Bu təlaşa müəyyən mənada əsas da var.

*****

"Konstruktiv siyasət yürüdən Qazaxıstan beynəlxalq gündəmdə olan əsas və ağrılı problemlərlə bağlı hər zaman çox sağlam mövqe sərgiləyir". Bu sözləri axar.az-a açıqlamasında araşdırmaçı jurnalist Tofiq Abbasov bildirib. Onun sözlərinə görə, MDB məkanında Azərbaycandan sonra Qazaxıstanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi təsadüfi deyil.

"Əlbəttə ki, Qazaxıstan ilk növbədə geosiyasi və geoiqtisadi mövqeyinə görə çox perspektivli bir məmləkətdir. Çünki bu dövlətin inkişaf templəri diqqət çəkir. Digər tərəfdən isə Qazaxıstan həm ölkə daxildə, həm də bölgədə və Avrasiya məkanında gözləntilərə uyğun təşəbbüslər irəli sürür və onların həyata keçməsinə şərait yaradır. Bu baxımdan da Qazaxıstanı dünya miqyasında çox vacib beynəlxalq rol oynayan subyekt kimi qarşılayırlar. Bir çox məqamda Astananın balanslı siyasəti həm də aydın mənzərənin yaranmasına dəlalət edir. Məhz Dağlıq Qarabağ problemi çərçivəsində də biz bunun təsdiqini görmüşük. Astananın Dağlıq Qarabağ məsələsi ilə bağlı mövqeyi çox müsbətdir. Təhlükəsizlik Şurasına sədrlik Qazaxıstan rəhbərliyinin bütün problemlərə sağlam məfkurə ilə yanaşmasından irəli gəlir. Çünki Astana ən ağrılı dilemmalarda belə, düzgün qərarların tətbiqinə təsir göstərə bilir".

**Politoloq Nursultan Nazarbayevin Azərbaycanın haqlı davasını Təhlükəsizlik Şurasının gündəminə çıxaracağını istisna etməyib:** "Nazarbayev çox təşəbbüskar siyasətçidir və onun Avrasiya üçün hələ 90-cı illərdə təklif etdiyi qarşılıqlı əməkdaşlıq konsepsiyası, regionda risklərin və təhlükəli cərəyanların zərərsizləşdirilməsi ilə bağlı yanaşmaları, inteqrasiya prosesindəki funksional rolu, Çinin təklif etdiyi yeni Dəmir İpək Yolu layihəsinin gerçəkləşməsində dəstəyi, o cümlədən nüvə proqramlarının təhlükəsizliyi ilə əlaqəli konsepsiyası bütün dünya tərəfindən rəğbətlə qarşılanır. O üzdən də hesab




edirəm ki, Qazaxıstanın TŞ-yə sədrliyi çox məhsuldar olacaq. Astana sədrliyi dövründə bir çox staqnasiya vəziyyətində olan münaqişələrə, o cümlədən Qarabağ böhranına xüsusi diqqəti göstərə bilər ki, bu da beynəlxalq təşkilatları, ən əsası isə Minsk Qrupunu münaqişəsinin həllinə yenidən baxmağa və tutarlı qərarlar çıxarmağa təşviq edə bilər".

*****

Bu arada Avropa Şurası Parlament Assambleyasının (AŞ PA) yeni prezidenti də İtaliyadan olan deputat Mikole Nikeletti seçilib. Məlumatlara görə, o, Azərbaycana loyal münasibəti olan siyasətçidir. Ümid edək ki, onun bu keyfiyyəti Azərbaycanla bağlı məsələlər zamanı pozitiv planda özünü göstərəcək.

"İtaliyalı deputat Mikele Nikolettinin Avropa Şurası Parlament Assambleyasının prezidenti seçilməsi həm Türkiyə, həm də Azərbaycan üçün yalnız uğurlu ola bilər". Bunu Türkiyənin AŞ PA-dakı nümayəndə heyətinin rəhbəri, deputat Akif Çağatay Kılıç bildirib (Report). Türkiyəli parlamentari deyib ki, M.Nikolettinin bu vəzifənin öhdəsindən gələcəyinə şübhə etmir.

"O, AŞ PA-da uzun illik təcrübəyə malikdir və bir sıra missiyalar həyata keçirib. Digər müsbət tərəf isə əslən italyan mənşəli olması, beləliklə, xarakter və mentalitet baxımından bizə daha yaxın olmasıdır. Həqiqətən də keçirdiyimiz görüşlərdən belə nəticəyə gəlmək olar ki, Mikele Nikoletti dünyagörüşlü, müdrik bir rəhbər olacaq. Onunla uğurlu dialoq qura bilmişik. O, bizi tanıyır, biz onu tanıyırıq. Hesab edirəm ki, onun AŞ PA prezidenti seçilməsi həm Türkiyə, həm də Azərbaycan üçün yalnız uğurlu ola bilər", - deyə qardaş ölkənin deputatı vurğulayıb .

**Dağlıq Qarabağ münaqişəsinə toxunan A.Ç.Kılıç bildirib ki, münaqişə ilə bağlı reallıqlar göz qabağındadır:** "Həmin gerçəklikləri heç kim inkar edə bilməz. Bu reallıqları saxtalaşdırmağa çalışanlar buna nail ola bilməyəcəklər, çünki artıq hamı həqiqəti bilir. Bu günün aktual məsələsi isə bu gerçəklərin qəbul etdirilməsidir. Biz Dağlıq Qarabağ məsələsində bu günə qədər olduğu kimi, bundan sonra da AŞ PA çərçivəsində azərbaycanlı deputatlarla birgə fəaliyyət göstərəcəyik".

*****

Yada salaq ki, AŞ PA isə qəbul elədiyi qətnamələrində, o sırada təxminən 1 il öncə qəbul elədiyi, Sərsəng su anbarı ilə bağlı sənəddə Ermənistanı işğalçı ölkə kimi tanıyıb. Başqa sözlə, qurumun Dağlıq Qarabağla bağlı yanaşması əslində Azərbaycanın suverenliyi və ərazi bütövlüyünə hörmətə əsaslanır. Əfsus ki, Avropa Şurası da Avropa Birliyi kimi hələlik münaqişənin həllində yaxından iştirak edə bilmir. Minsk Qrupunun monopoliyası buna imkan vermir.

Ancaq problemin bu şəkildə qalması da illərlə sürə bilməz və Avropanın, onun əsas strukturlarının da maraqlarının əleyhinədir. Həm də o səbəbə ki, Azərbaycandan Avropa ölkələrinə doğru uzanan strateji əhəmiyyətli neft-qaz kəmərləri, o cümlədən bu il işə düşəcək və Cənub Qaz Dəhlizinin mühüm seqmentlərindən olan TANAP qaz xətti konfliktli zonanın yaxınlığından keçir və ermənilər dəfələrlə bu kəmərləri hədəf ala biləcəkləri barədə avantürist bəyanatlar veriblər.

Nəhayət, "Yeni Müsavat" bunu da diqqətə çatdırır ki, Dağlıq Qarabağ konfliktində münaqişə tərəfləri arasında atəşkəsə heç bir beynəlxalq ayırıcı qüvvə nəzarət eləmir. Belə ayırıcı və ya sülhməramlı qüvvələr yoxdur. Demək, nizamlama prosesi uzanarsa, istənilən an atəşkəs aktiv hərbi əməliyyatlar fazasına keçə bilər - necə ki, 2016-cı ilin aprelində "4 günlük müharibə" zamanı dünya bunun şahidi oldu.

**Necə deyərlər, "Şər deməsən, xeyir gəlməz". Müharibə isə gələndə heç kimdən soruşmur...**

YENİ MÜSAVAT
N 17 (6906) 24 yanvar 2018



# Boş postlar

Samir SARI

**Mediada hər kəsin Türkiyənin Suriyada apardığı Afrin əməliyyatından, ABŞ-ın, Rusiyanın, İranın bu əməliyyata münasibətinə dair yazdığına baxmayın, bu saat orda-burda, xeyirdə-şərdə ən çox müzakirə olunan məsələ boş qalan yüksək postlara kimin təyin olunacağıdır.**

Heç demə, təkcə təhsil naziri postu boş deyilmiş, başqaları da varmış. Məsələn, Lənkəran Dövlət Universitetinin və Azərbaycan Texniki Universitetinin rektoru vəzifələri boş imiş. Elə Ali Attestasiya Komissiyasının sədri vəzifəsi də xeyli vaxtdır, oxumuş adamlar demişkən, vakantdır.

Bəs Təhsil İnstitutunun direktoru vəzifəsinə, eləcə də DTX Akademiyasının rəisi postuna niyə heç kim təyin edilmir? Yəqin ki, vaxtı var, hələ müzakirə gedir.

Göründüyü kimi, bu təkcə təhsil sferasına aid olan boş vəzifələrdir. Hətta buraya bu günlərdə vergilər nazirinin müavini vəzifəsinə transfer edilmiş Mətin Eynullayevin keçmiş vəzifəsini də aid etmək olar. Güman ki, yeni təhsil naziri işə öz yeni müavini ilə birlikdə başlayacaq.

Mütləq kimsə tapılacaq ki, deyəcək, ona qalsa, baş nazir (yeni variantda - Baş Nazir) vəzifəsi də boşdur. Yox, söhbət rəsmən boş qalmış vəzifələrdən gedir. O cür boşluqları nəzərə alsaq, onda gərək hesab edək ki, parlamentdə 125 yerin ən azı 50-si boşdur. Parlamentin plenar və komitə iclaslarında dinmirlər, danışmırlar, layihə hazırlamırlar, təklif vermirlər, seçicilərinin yaralı barmağına ilk tibbi yardım göstərmirlər, hətta son vaxtlar quşlayacaqlarından qorxub mətbuatın sualına cavab da vermirlər. Ta boşluq necə olur ki?

Amma bu, bizim işimiz deyil. Onlar bilər, seçici bilər. Qoy öz münasibətlərini ayird eləsinlər. Bildiyimə görə, ölkə seçicilərinin yarıdan çoxu onları parlamentdə kimin təmsil etdiyini bilmir. Şəxsən mən özüm neçə vaxtdır qəsəbəmizdən kimin deputat seçildiyini öyrənməyə çalışıram, amma hələ, türkün sözü, olumlu cavab almamışam. Deyirlər, seçki vaxtı kimsə seçildi, amma nə onda, nə də sonra gəlib-getmədi, adı da yadımızdan çıxıb.

Xüləs, söhbət boş qalan vəzifələrdən gedir.

Hazırda əsas məsələ o boş vəzifələri kimlərin tutacağına dair düzgün proqnoz verməkdir. İndiyədək heç kəsin proqnozu düz çıxmayıb. Bir ara hətta təhsil naziri vəzifəsinə təyin olunan adamın ad-soyadını da çəkmişdilər. Saytlar adamın nəsil şəcərəsindən yazmış, tərcümeyi-halını vermişdilər *(hərçənd o avtobioqrafiyada 18 yaşda XİN-də mühüm vəzifədə çalışmaq kimi bir sətir də vardı, o müəmmaya açıqlıq gətirilmədi).* Amma xəbər təsdiqlənmədi.

Beləcə, görün neçə aydır, təhsil naziri vəzifəsi boşdur. Düzdür, bu vakansiyanın "dərsə gedən bir uşağ"a heç bir istisi-soyuğu yoxdur, amma təhsil ictimaiyyəti, eləcə də xalqımız bu qədər intizarda saxlanılmağa tab eləmir. Hamının fikrində bir şüar var: "Təyin edilsin nazir, bitsin bu işgəncə!"

Hələ görün bu post pullu nazirliklərdə boş olsaydı, ictimai həyəcan və ümumxalq əndişəsi nə boyda olardı. İndi yenə kimsə deyəcək ki, heç Təhsil Nazirliyi də kasıb idarə deyil. Yox, ortada müqayisə məsələsi var. Ölkədə elə nazirliklər var ki, orada hər axşam toplanılan pulu özüboşaldan maşınlara elevatorla yükləyirlər, onların yanında Təhsil Nazirliyi Xalça Muzeyi kimi bir şeydir.

Bəs xalqımız niyə bu məsələ ilə bağlı bu qədər həssasdır? Axı o vəzifəyə cəmi bir adam təyin olunacaq. İzahı var. Birincisi, hamı istəyir ki, istənilən nazir vəzifəsinə təyin olunacaq tək adam onun yaxını *(rayonlusu, qohumu, dost-tanışı, keçmiş iş yoldaşı, hətta xalasının ərinin tələbə yoldaşı, qayınatasının qardaşının əsgərlik dostu)* olsun. İkincisi, tək adamın nazir postuna təyin edilməsilə məsələ bitmir, o təyinatın ardınca yüzlərlə başqa təyinatlar da olur, iyerarxiya pillələrində duranların çoxu dəyişir. O pillələrdə gözü olanların həyəcanlanması təbii deyilmi?

İmtahan üçün, sabah hansısa sayt, yaxud da bir feysbuk istifadəçisi götürüb izləyicilərinə belə bir sual ünvanlasın: "Sizcə, yeni təhsil naziri kim olsa yaxşı olar?"

Bax, siz o zaman suala verilən cavablardakı rəngarəngliyi, yazılan şərhlərdəki şövqü, ehtirası, hiddəti görərsiniz.

**Yanvarın 22-də başlayan və 26-na qədər davam edəcək Avropa Şurası Parlament Assambleyasının qış sessiyasında qurulma prezident seçilən Mikele Nikolettinin çıxışı ciddi maraq doğurub. Onun çıxışında diqqətlər daha çox bir istiqamətə yönəlib.**



# AŞ PA-nın yeni prezidenti siyasətçiləri "qaraladı"-Bakıdan reaksiyalar

Avropa Şurası məkanında münaqişələrin sayının artdığını və bunun narahatlıq doğurduğunu dilə gətirən AŞ PA prezidenti deyib: "Biz bu münaqişələrin həllinə nail olmadığımıza görə vətəndaşların siyasətçilərə inamı itib".

AŞ PA prezidentinin dedikləri Azərbaycanda da geniş müzakirələr doğurub. Buna səbəb də Avropa Şurası məkanındakı münaqişələr dedikdə Dağlıq Qarabağın da nəzərdə tutulmasıdır. Bu baxımdan Mikele Nikolettinin bu fikirləri ilə bir çox üstüörtülü məsələlərin açıldığı bildirilir. Xüsusilə münaqişənin həlli üçün yaradılan ATƏT-in Minsk Qrupunun yaritmaz fəaliyyəti bir daha gündəmə gəlib.



**Fərəc Quliyev:** "Fikirlər doğrudur, siyasətçilərə etimadsızlıq yaranıb"



**Sərdar Cəlaloğlu:** "Belə siyasət aparan ölkələrin vətəndaşları heç zaman rəhbərlərə inanmırlar"

**Milli Dirçəliş Hərəkatı Partiyasının sədri, deputat Fərəc Quliyev Mikele Nikolettinin dediklərində həqiqətlərin olduğunu söylədi:** "Onun fikirləri ilə tamamilə razılaşıram. Çünki avropalı siyasətçilər də münaqişələrə biganə qalmağın bir az da bədəlini ödəməli olurlar. Artıq öz ölkələrində bu hadisələr baş verir. Əvvəl Qarabağ məsələsinə biganə yanaşıldı, ardınca Rusiya revanş götürərək, Ukraynanın Şərq hissəsini işğal etdi. Kataloniyada da baş verən hadisələr hələ səngiməyib. Fransanın özündə də bölünmə istəyində olanlar var. Ərəb ölkələrini də münaqişələrdən başlayan böyük müharibələr artıq ağuşuna alıb. Bu baxımdan tamamilə razılaşıram ki, bu münaqişələr həll olunmadığı üçün yerli əhalinin də haqlı narazılıqları başlayır. Bütün dünya bir-birindən xəbər tutur. Hamı bilir ki, bu gün digər yerdə baş verənlər sabəri gün onların da başına gələcək. İŞİD yarandı və bir müddətdən sonra fəaliyyəti Avropada özünü göstərməyə başladı. Nəticədə də terror faciələri ilə avropalılar da ölümə düçar oldular. Bu narahatlıq tamamilə əsaslıdır. Hesab edirəm ki, bunun da kökündə ilk növbədə, postsovet məkanında baş verən hadisələr durur. Bunlara diqqətsiz yanaşılmağın bədəli ödənilir. Burada günah siyasətçilərdə axtarılır və məncə, doğru düşünülür. Amma Mikele Nikoletti bir az üstüörtülü danışıb. O siyasətçilərin yanlış siyasətidir ki, bumeranq rolunu oynayaraq özlərinə qarşı yönəlir. Deyilən fikirlər doğrudur, siyasətçilərə etimadsızlıq yaranıb. Bu baxımdan onun dediklərini bölüşürəm".

**ADP sədri Sərdar Cəlaloğlu Mikele Nikolettinin çox ciddi bir fəlsəfi məsələ qaldırdığını söylədi:** "Tam və hissələr anlayışı var, götürək BMT-ni, dövlətlər onun hissələridir, xalqlar isə insanlığın hissələridir. Beynəlxalq hüquq normalarına insanlar əməl edib tamlıqlarını qoruyurlar. Əgər bu normalar pozularsa, hissələr üzərindən nəzarət qaldırılır. Bu gün dünyada baş verənlər əslində tamlığın pozulması ilə hissələrin yaratdığı xaotik durumdan irəli gəlir. Hər bir dövlət öz şəxsi maraqlarından çıxış edərək siyasət yürüdür. Amerika Suriyaya girir, Rusiya Ukraynaya, eləcə də digər dövlətlər. Bununla da dünya nizami pozulduğu üçün hissələr xaotik hərəkətə başlayır. Nəticədə də hər bir insan xaotik duruma düşdüyünü özündə hiss edir, çünki tamlıq pozulub. Dünyanın hansı yerində yaşamasından asılı olmayaraq, hər bir insan bunları anlayır. Nəticədə də insan onu idarə edənlərə olan hörmətini itirməyə başlayır. Baxmayaraq ki, Amerika xalqı üçün rəhbər digər yerlərə girir, münaqişələr yaradır, amma bu siyasət ölkə daxilində etimadsızlıq yaradır. Çünki insan şüurlu şəkildə anlayır ki, dünyada xaosun yaranması onun da maraqlarına uyğun deyil. Məsələn, bu gün amerikalılar Əfqanıstan, İraq, Suriya və Amerikanın düşmən elan etdiyi ölkələrə asanlıqla girə bilməzlər. Çünki dəqiqədə bir ABŞ Dövlət Departamenti bəyanat verir ki, bu yerlərə getmək olmaz, çünki təhlükəlidir. Bunun da səbəbi Amerikanın apardığı siyasətlə bağlıdır. Rus vətəndaşları bir çox ölkələrdə arzu olunmurlar. Bunun da səbəbi odur ki, Rusiya həmin xalqlara qarşı işğalçılıq siyasəti aparıb. Ukraynada, Azərbaycanda rusların sevilməməsi bunlara misaldır. Belə siyasət aparan ölkələrin vətəndaşları heç zaman rəhbərlərə inanmırlar, eləcə də digər xalqlar. Faktiki olaraq, bunlar tam və hissələr arasında yaranan pozuntulardan doğur. Bu gün dünyadakı xaosun yeganə bir səbəbi var ki, o da beynəlxalq hüquq normalarının işləməməsi, dövlətlərin öz bildiklərini maraqlarına uyğun həyata keçirmələridir".

❑ **Cavanşir ABBASLI,**
❑ **"Yeni Müsavat"**

## AŞ PA baş katibi: "Avropa Şurası maliyyə böhranı yaşayır"



Turbyorn Yaqland

**"Avropa Şurası (AŞ) maliyyə böhranı yaşayır, Rusiya və Türkiyədən yardımların eyni zamanda azalması ilə əlaqədar olaraq fəallığını azaltmaq məcburiyyətindədir".**

Bunu təşkilatın baş katibi Turbyorn Yaqland AŞ PA deputatları qarşısında çıxış edərkən deyib.

Baş katib təşkilatın ştat vahidini bir qədər azaltmağa məcbur olduğunu bildirib.

Qeyd edək ki, Avropa Şurasının ümumi illik büdcəsi 450 milyon avrodur.

Xatırladaq ki, ötən il Rusiya Avropa Şurasının büdcəsinə minimum təyin olunmuş ödənişin üçdə ikisini ödəməyəcəyini açıqlayıb. Eyni zamanda AŞ PA-nın tənqidlərinə cavab olaraq, Türkiyə AŞ-yə ianələrin miqdarını minimuma endirib.

## Daha bir serbiyalı siyasətçi Haaqa tribunalına təslim oldu



**Hərbi cinayətlərdə ittiham edilən daha bir yüksək vəzifəli serbiyalı siyasətçi - "Serb Krainası respublikası"nın eks-prezidenti Milan Martiç Haaqa tribunalına təslim olub.**

Virtualaz.org "Vesti"yə istinadən xəbər verir ki, Martiç 1995-ci ildə Zaqrebdə dinc sakinlərin qətlində günahlandırılır.

Bildirildiyinə görə, Martiç ittihamları qəbul etmir və təqsirsizliyini Haaqa tribunalında sübuta yetirmək niyyətindədir.

YENİ MÜSAVAT
N 17 (6906) 24 yanvar 2018

# Yeni vergilər naziri "Naz-Lifan"la işə gəlir

## İqtisadçıların Mikayıl Cabbarovdan gözləntiləri: "Vergi sistemi liberallaşa bilər..."

**Dekabrın 5-də Mikayıl Cabbarovun vergilər naziri vəzifəsinə təyin olunması və yeni nazirin fəaliyyətinin ilk günlərindən başlayaraq həyata keçirdiyi kadr islahatları real sektorda ümidləri artırır. Belə ki, biznes adamlarının az qala qanını soran rəhbər və ikindi dərəcəli işçilərdən bir çoxu işdən çıxarılıb.**

Vergilər Nazirliyindən verilən rəsmi məlumatda da bildirilib ki, vergi inzibatçılığının təkmilləşdirilməsi, daha çevik idarəetmə mexanizmlərinin tətbiqi və yeni çağırışlara cavab verən vergi sisteminin formalaşdırılması məqsədilə Vergilər Nazirliyində struktur və kadr islahatlarına başlanılıb. Nazirin müvafiq əmrləri ilə 64 nəfər vergi xidməti əməkdaşı tutduğu vəzifədən azad edilərək nazirliyin sərəncamına götürülüb ki, onların arasında nazir müşavirləri, struktur bölmə rəhbərləri və digər vəzifəli şəxslər var.

Qeyd edək ki, Mikayıl Cabbarov daha çox güvəndiyi əvvəlki kadrlarını Vergilər Nazirliyinə cəlb edir. Belə ki, daha öncə təhsil nazirinin müavini olan Mətin Eynullayev prezidentin sərəncamı ilə vergilər nazirinin müavini təyin edilib. Bundan başqab nazir vaxtilə birlikdə çalışdığı Təhsil Nazirliyinin Aparat rəhbərinin müavini Camal Qasımovu yanına aparıb və özünə müşavir təyin edib.

Yeni nazirin liberal düşüncəli şəxs olması və islahatlara açıq olması iqtisadçı ekspertlərin də vergi sisteminin dəyişəcəyi ilə bağlı ümidlərini artırır. Həmçinin "Yeni Müsavat" daha öncə dərc olunan yazılarda da bildirilirdi ki, iş adamlarının vergi borclarının silinməsinə başlanılıb.






Bu günlərdə mətbuatda Mikayıl Cabbarovla bağlı yeni bir məlumat da yayılıb. Vergilər naziri təyin olunandan sonra onun nazirliyə "Naz-Lifan" markalı avtomobillə gəldiyi bildirilir. Belə ki, nazir bəzi günlərdə Azərbaycan istehsalı olan "Naz-Lifan" markalı xidməti avtomobildən istifadə edir. Bununla yanaşı, onun xidmətində "BMW" markalı avtomobil də var.

**Nazirlikdə baş verən dəyişikliklərə münasibət bildirən iqtisadçı ekspert Vüqar Bayramov bildirdi ki, vergi sistemində liberallaşmanın aparılacağı ilə bağlı gözləntilər var:** "Vergilər Nazirliyindəki dəyişikliklərdən sonra nazirliyin fəaliyyətinin necə dəyişdiyini qiymətləndirmək hələ tezdir. Çünki dəyişikliklərdən hələ qısa bir müddət keçib. Bununla belə nazirlikdəki kadr dəyişikliyindən sonra, biz vergi sisteminin liberallaşdırılacağını və vergi dərəcələrinin optimallaşdırılacağını güman edirik. Gözləyirik ki, vergi sistemində liberallaşma, xüsusən də vergi yükünün azaldılması ilə bağlı islahatlar aparılacaq və davam etdiriləcək".

İqtisadçı onu da vurğuladı ki, vergi sistemi, eləcə də vergi orqanları ilə sahibkarlar arasında münasibətlər qeyri-neft sektorunun inkişafı baxımından çox vacibdir: "Bu gün sahibkarlar arasında keçirilən sorğu da göstərir ki, onlar həm vergi yükünün azadılmasında maraqlıdırlar, həm vergi orqanları ilə əməkdaşlığın daha sivil və modern müstəvidə inkişaf etməsinin tərəfdarıdırlar. Ancaq təbii ki, ənənəvi problemlərin həlli vacibdir. Güman edirik ki, bu istiqamətdə addımlar atılacaq. Çünki kifayət qədər liberal imici olan bir şəxsin Vergilər naziri təyin olunması da ondan xəbər verir ki, bu sistemdə liberallaşdırmanın həyata keçirilməsi əsas hədəflərdən biridir. Vergi dərəcələrinə də yenidən baxılmasına ehtiyac var, xüsusən də gəlir vergisi ilə bağlı 14-25 faizə yenidən baxılması və onun aşağı salınmasına ehtiyac var. O cümlədən, ƏDV-nin diferensial tətbiq edilməsi vacibdir. Sosial vergilərin azaldılması və bu vergilərin işəgötürənlə işçi arasında da optimal bölüşdürülməsinə ehtiyac var. Ona görə də vergi sistemində həyata keçirilməli olan islahatlar həddindən artıq çoxdur. Güman olunur ki, kadr dəyişiklikləri ilə yeni islahatların başlanmasına start veriləcək".

**Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin üzvü Vahid Əhmədov da "Yeni Müsavat"a açıqlamasında hökumətin əsas strateji xəttinin vergi sisteminin liberallaşdırılması istiqamətində olduğunu vurğuladı:** "Vergilər Nazirliyi qapalı bir qurumdur, orada gedən proseslərdən bizim o qədər də xəbərimiz yoxdur. Bizə bu barədə məlumat verilmir. Düzdür, müəyyən kadr islahatları gedir, departament birləşdirilir, Təhsil Nazirliyindən müavinlər gətirilir. Ancaq islahatların necə aparılacağı, hansı vergi və struktur dəyişikliklərinin olacağı barədə dəqiq məlumatımız yoxdur. Çünki bu çox önəmli bir nazirlikdir. Azərbaycanın dövlət büdcəsinin 70 faizi bu nazirlikdən asılıdır. Hansı islahatlar həyata keçiriləcək, Vergilər Məcəlləsinə hansı dəyişikliklər olunacaq, biz bunu deyə bilmərik. Bizi sahibkarlığın inkişafı ilə əlaqədar vergilər maraqlandırır. Bu sahədə şəffaflıq təmin olunacaqmı, kölgəli vergi sistemi aradan qaldırılacaqmı? Bu məsələlər bizi narahat edir. Hələlik əlimizdə dəqiq məlumat yoxdur, bütün işlər qapalı şəkildə aparılır. Hökumətin xətti aydındır- bu, şəffaflıq və liberallaşmadır".

**Mikayıl Cabbarovun işə "NAZ Lifan"la getməsinə gəlincə, V. Əhmədov bildirdi ki, bu, dövlət başçısının göstərişinə uyğun olaraq məmurların yerli məhsullardan istifadəsinin bir nümunəsidir:** "Bu, təbliğat maşınıdır və işləyir. Ölkə başçısı bu istiqamətdə göstəriş verib və ona hamı əməl etməlidir. Bu, hökumət səviyyəsində əməl olunmalı bir məsələdir. Daxili tələbatı ödəmək üçün Azərbaycanda kifayət qədər avtomobil varsa, ondan istifadə etmək lazımdır. Bunun üçün cənab prezidentin göstəriş verməsini gözləmək lazım deyil".

❑ **Nərgiz LİFTİYEVA, "Yeni Müsavat"**

# Davos Forumu başladı- nəhəng şirkətlərin qatıldığı tədbir haqda bilmədiklərimiz

## İllik toplantılara forumun üzvü və təşkilatçısı olan min özəl şirkətin rəhbərləri ilə yanaşı, siyasətçilər, elm və din adamları qatılır




**Yanvarın 23-də Davos Forumu işə başlayıb. "Yeni Müsavat" dünyanın qəlbinin döyündüyü tədbir barədə dosye xarakterli məlumatları toplayıb. BBC-nin məlumatına görə, Dünya İqtisadi Forumu (The World Economic Forum - WEF) 1970-ci illərdə akademik Klaus Schwab tərəfindən yaradılmış kiçik bir qrupdan, hər il 2.500 iştirakçının qatıldığı nəhəng təşkilata çevrilib. Bunların 1000 nəfərindən çoxu böyük şirkətlərin direktorları, 40-dan çoxu dövlət başçılarıdır.**

Burada məxfilik dərəcəsi müxtəlif olan iclaslar keçirilir. Bir də bağlı qapı arxasında keçirilən tədbirlər var. Bağlı görüşlərə ağ rəngli buraxılış vəsiqələrinin sahibləri baş çəkə bilər. Şəxsi görüşlər də olur və adətən siz bunlardan heç xəbər də tutmursunuz. Qapalı görüşlərdə böyük sövdələşmələr yer alır.




Tədbirdə çoxsaylı niqtlərdən başqa bir xeyli qonaqlıqlar da olur. Burda şirkətlər öz müştəriləri üçün şam və içki süfrələri açırlar. Bəzən "Killers" kimi böyük musiqi qrupları burada canlanma yaradır.

Forumun tarixində dərhal həll olunan problemlərdən biri 1980-ci illərdə Türkiyənin Yunanıstana müharibə elan etməsinin qarşısının alınması olub. Onda keçmiş Türkiyə baş naziri Turqut Ozal yunan həmkarı Andreas Papandreou ilə görüşmüşdü və qərara gəlmişdi ki, ona etibar edə bilər.

Lap bu yaxınlarda BRİCS Təşkilatının İnkişaf Bankı barədə ideya, burada, iqtisadçılar lord Stern və Joseph Stiglitz arasında 2011-ci ildə baş vermiş söhbətdə yaranıb.

İş adətən səhər saat 7-də verilən səhər yeməyindən başlanır və gecədən xeyli keçmiş ziyafətlə başa çatır.

Qeyd etdiyimiz kimi, illik toplantılara forumun üzvü və təşkilatçısı olan min özəl şirkətin rəhbərləri ilə yanaşı, "seçilmiş" siyasətçilər, elm adamları, qeyri-hökumət təşkilatları və din adamları ilə media təmsilçiləri qatılır. Görüşün rəsmi proqramına daxil olan 200-dən artıq iclas mediaya açıq keçirilir. Hər il yanvar və ya fevral ayında təkrarlanan Dünya İqtisadi Forumu zamanı qeyri-rəsmi ikili görüşlər də ən azı rəsmi proqramdakı toplantılar qədər diqqət çəkir. Şirkət və dövlətlərin özəl dəvətləri də qlobal dünya problemlərinin müzakirəsi baxımdan önəmli bir platform təşkil edir.

### Dünya İqtisadi Forumunun mövzuları nələrdir?

İndi forumla bağlı geniş məlumat almaq üçün bəzi sualların cavablarını da araşdıraq. Məsələn, Dünya İqtisadi Forumunun mövzuları nələrdir? Dünya İqtisadi Forumu artıq sadəcə qlobal iqtisadi durumun müzakirə olunduğu və gələcəyə dair gözləntilərin dartışıldığı bir görüş olmaqdan çıxıb. Gündəlik və operativ çıxış yolu gözləyən siyasi və sosial problemlər son illərdə daha çox diqqət çəkməyə başladı. Bütün dünyanı maraqlandıran mövzuların mikroskop altına alındığı görüşün gündəmində ticari əngəllər, anlaşılmazlıqlar, kasıblıq və təbiətin mühafizəsi kimi mövzularda həll yolları imkanları müzakirə olunur. Qərar verənlər arasındakı fikir mübadiləsinə platform yaradan Dünya İqtisadi Forumu qloballaşma əleyhdarlarının etiraz nümayişlərinə də zaman-zaman ev sahibliyi edir.

### Virtual aləmin təmsilçiləri Davosa önəm verirmi?

Neoliberal iqtisadiyyatın öndə gələn təmsilçiləri hər il olduğu kimi bu il də Davosda əzələ nümayişi edir. İş həyatının nəhəngləri sayılan və virtual aləmdə daha çox görünən şirkətlər də forumu diqqətsiz qoymurlar. "Alibaba"nın qurucusu Cek Ma Yun, "Facebook" müdiri Şerl Sandberq, "Google" holdinqi "Alphabet"in rəhbəri Erik Smidt, "Baidu" axtarış motorunun rəhbəri Ya-qin Zang, Yaponiya makina və elektrik nəhəngi "Hitachi"nin rəhbəri Hiroaki Nakanişi və "Microsoft"un müdiri Satya Nadella da Davosa gələnlər arasında olur.

Forum hər il Çində Yeni Çempionlar Konfransı adı verilən bir konfrans və dünyanın müxtəlif bölgələrində ərazi üzrə konfrans seriyaları təşkil edir. 2008-ci ildə bu konfranslar arasında Avropa və Orta Asiya, Uzaq Şərq, Afrika, Orta Şərq və Latın Amerika bölgəsi üzrə konfranslar keçirilib. Forum təşkil etdiyi konfranslarla yanaşı, araşdırma sənədləri yayımlayır və üzvlərinin müxtəlif sektordakı fəaliyyətini dəstəkləyir.

❑ **Sevinc TELMANQIZI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 17 (6906) 24 yanvar 2018

# "Reket" baş redaktorun məhkəməsində "ailə sirri"

## Hakim məhkəmənin bəzi iclaslarının qapalı keçirilməsinə qərar verdi



**"Reket"çilikdə ittiham edilərək DTX tərəfindən həbs edilən şəxslərin məhkəməsi davam etdirilib. Musavat.com xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində "Bizim dövr" qəzetinin baş redaktoru Surxay Əliyev, onu müavini Hikmət Nəcəfli, "İlk xəbər" saytının baş redaktoru Gülbəniz Əliyeva, işçiləri İlahə Qasımova, Sevinc Məmmədsalayeva və "Kriminal" qəzetinin baş redaktoru Marif Abbasovun cinayət işi üzrə məhkəmə iclası davam etdirilib.**

Hakim Mahmud Ağalarovun sədrliyi ilə keçirilən prosesdə Surxay Əliyevin vəkili Ceyhun Yusifov vəsatət qaldırıb.

Vəkil məhkəmə iclaslarının qapalı keçirilməsini istəyib. Digər təqsirləndirilən şəxslərin vəkilləri də təklifi dəstəkləyiblər.

Əsas olaraq da göstəriblər ki, cinayət işində ailə sirri var və vəzifəli şəxslərin adları keçir. Məhkəmə vəsatəti qismən təmin edib və bildirilib ki, ailə sirri olan epizodlarda proseslər qapalı keçiriləcək.

Məhkəmənin davamında dövlət ittihamçısı ittiham aktını elan edib. İttihamda yazılır ki, S.Əliyev 47, H.Nəcəfli 46 epizodda ittiham edilir.

Surxay Əliyevin epizodu üzrə 66 min manat, H.Nəcəflinin epizodu üzrə 78 min manat, İ.Abbasovanın 7300 manat, M.Abbasovun 7500 manat, S.Məmmədsalayevanın 20 min manat, G.Əliyevanın epizodu üzrə 3900 manat ziyan dəydiyi bildirilib.

Surxay Əliyev və M. Abbasov özlərini təqsirli bilmədiklərini deyiblər. H.Nəcəfli, S. Məmmədsalayeva, İ.Abbasova qismən təqsirli bildiklərini söyləyiblər.

Təqsirləndirilən şəxslər zərərçəkmişlərdən sonra ifadə vermək istədiklərini söyləyiblər.

Qeyd edək ki, Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) İctimaiyyətlə əlaqələr şöbəsinin yaydığı məlumata görə, DTX əməkdaşlarının keçirdiyi əməliyyat zamanı "Gündəlik Bakı" qəzetinin baş redaktoru Habil Vəliyev, "Bizim dövr" qəzetinin baş redaktoru Surxay Əliyev və onun müavini Hikmət Nəcəfli saxlanılıb. Səbayel Rayon Məhkəməsinin qərarı ilə onların barəsində 4 ay müddətinə həbs-qətimkan tədbiri seçib.

Məlumata görə, qabaqcadan əlbir olan bir qrup şəxsin gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə etməklə qadınları digər şəxslərlə görüşdürüb münasibətlərinin gizli videoçəkilişlərini aparması, onları şantaj etməsi, habelə ayrı-ayrı şəxslər barəsində rüsvayedici və böhtan xarakterli məlumatları mütəmadi olaraq mətbu orqanlarında dərc etdirib bu fəaliyyətin dayandırılması müqabilində vətəndaşlardan külli miqdarda pul tələb edilməsi və alınması, bu üsulla müxtəlif idarə və təşkilatlarda çalışan şəxslərdən, sahibkarlardan dövri haqq toplanılması barədə daxil olmuş müraciətlər DTX-da araşdırılarkən Azərbaycan Respublikası ərazisində "reket" nəşrlər yaradıb, bu nəşrlərin jurnalistləri adı altında fəaliyyət göstərən bir qrup şəxs və onlarla şəbəkə halında əlbir olan digər şəxslərdən ibarət cinayətkar dəstənin silsilə cinayət əməlləri ifşa edilib, qanunsuz fəaliyyətlərinin qarşısı alınıb. DTX tərəfindən aparılan araşdırmaların nəticələri üzrə hədə-qorxu ilə tələb etmə, əməliyyat-axtarış fəaliyyətini həyata keçirmək səlahiyyətinə malik olmayan şəxslər tərəfindən gizli qaydada informasiya alınması üçün nəzərdə tutulmuş texniki vasitələrdən istifadə etməklə belə tədbirlərin keçirilməsi faktları üzrə cinayət işi başlanılıb.

G.Əliyeva, İ.Qasımova və M.Abbasovun barəsində həbs-qətimkan tədbiri seçilməyib. S.Məmmədsalayeva isə daha əvvəl hədə-qorxu ilə tələb etmədə təqsirləndirilərək 6 il müddətinə azadlıqdan məhrum edilib. O, hazırda 4 saylı cəzaçəkmə müəssisəsində cəzasını çəkir.

❑ **İ.MURADOV,**
**Musavat.com**



# İŞİD-ə qoşulan Rusiya FTX Akademiyasının kursantı Bakıda tutuldu

## 23 yaşlı Tacikistan vətəndaşı Navruz Sanqov ölkəsinə ekstradisiya edilib

Rusiya Federal Təhlükəsizlik Xidmətinin Moskvada yerləşən Akademiyasının kursantı, 23 yaşlı Tacikistan vətəndaşı Navruz Sanqov Bakı aeroportunda tutulub və ölkəsinə ekstradisiya edilib. Virtualaz.org AzadlıqRadiosunun tacik xidmətinə istinadən xəbər verir ki, Navruz Sanqov akademiyanın V kursunda oxuyarkən təhsilini atıb və yoxa çıxıb.

Daha sonra onun Azərbaycanda olduğu müəyyənləşib, 23 yaşlı kursant ötən ilin noyabrında Bakı aeroportundan Türkiyəyə uçmaq istərkən yaxalanıb. İndi Tacikistan hüquq-mühafizə orqanları onu ekstremizmdə və İŞİD-ə qoşulmaq cəhdində ittiham edir.

Tacikistan hüquq-mühafizə orqanlarındakı mənbə deyib: "Navruz yoxa çıxandan sonra bu barədə tacik tərəfi məlumatlandırıldı. Yalnız bir ay sonra onu Bakı aeroportunda İstanbula uçmaq istərkən aşkarladılar və tutdular".

Digər təfərrüatlar məlum deyil, ancaq təxmin edilir ki, Navruz Türkiyə üzərindən Suriyaya getməyə hazırlaşırdı. Kursant özü isə ittihamları qəbul etmir və hər hansı ekstremist qruplaşmalara qoşulmağa hazırlaşmadığını bildirir.

Navruzun yaxınları deyirlər ki, ötən il o, Tacikistanda Dövlət Milli Təhlükəsizlik Xidmətinin rayon şöbələrindən birində praktika keçib. Əlaçı kursant olub və təhsilini başa vurandan sonra Tacikistana qayıdıb təhlükəsizlik orqanlarında işləməyə hazırlaşırdı.

**Navruzun anası Niholb Rahimova deyib ki, oğlu ilə istintaq təcridxanasında görüşüb:** "Kimsə mənim oğlumu yolundan döndərib. O deyir ki, Türkiyəyə müalicə üçün gedirdi. Son vaxtlar mədəsindən və baş spazmlarından əziyyət çəkib, dəfələrlə akademik məzuniyyət götürmək istəyib, ancaq verməyiblər. Sonra da belə axmaqlıq edib. And içir ki, Türkiyəyə ancaq müalicə üçün gedirdi".

Anası deyir ki, oğlu üçün vəkil tuta bilmir, çünki işin olduqca qeyri-müəyyən olduğunu görən vəkillər onu müdafiə etmək istəmirlər.

Navruzun qardaşı Şərif isə deyir ki, onun təhsili atıb Azərbaycana yollandığını eşidəndə hamı təəccübləndi. Çünki Navruz təhsilini başa vurub güc strukturlarında işləməyə hazırlaşırdı, başqa planları yox idi.

Xatırladaq ki, minlərlə tacikistanlı gənc İŞİD sıralarına qoşulub. Onlardan ən yüksək rütbəlisi OMON komandiri Gülmurod Xalilov idi. Polkovnik Xalilov 2005-ci ildə vəzifəsini ataraq Suriyaya, İŞİD sıralarında döyüşməyə yollanıb.

# Gəncə və Abşeronda intihar

Gəncə şəhərində intihar hadisəsi baş verib. Lent.az xəbər verir ki, şəhərin Allahverdioğlu küçəsi 22 ünvanında yaşayan 1938-ci il təvəllüdlü Məhərrəmov Səfər Məhəmmədəli oğlu özünü asıb. Oxşar hadisə Abşeronda da qeydə alınıb. Rayonun Məhəmmədli qəsəbə sakini, 1992-ci il təvəllüdlü Məmmədov Səbuhi Qalib oğlu yaşadığı evdə özünü asıb.

Faktla bağlı Abşeron Rayon Prokurorluğunda cinayət işi başlanıb, araşdırma aparılır.

# Bakıda toy yasa döndü

Paytaxtda, "Qara Qarayev" metrosunun yaxınlığında yerləşən restoranlardan birində keçirilən toy məclisində bədbəxt hadisə baş verib.

Xezerxeber.az bildirir ki, hadisə yanvarın 22-də qeydə alınıb. Toyda iştirak edən 60 yaşlı kişi bir müddət rəqs edəndən sonra yerində əyləşib. Amma təxminən 5 dəqiqə sonra onun rəngi qaralıb və bundan sonra ürəyi qəfil dayanaraq dünyasını dəyişib.

Hadisə baş verəndən sonra şənlik dayandırılıb və hamı evinə gedib.



# Narkomanlar məcburi müalicə olunacaq

**Narkomaniya xəstəliyi ilə əlaqədar cinayət məsuliyyətindən azad edilməsi nəzərdə tutulan barəsində məcburi müalicə tədbirləri tətbiq edilmiş şəxslər ixtisaslaşdırılmış tibb müəssisələrində stasionar müalicə olunacaqlar.**

APA-nın məlumatına görə, bu, Nazirlər Kabinetinin "Narkotik vasitələrin və psixotrop maddələrin tibbi məqsədlərlə istifadə edilməsi qaydasının və şərtlərinin, habelə narkomanlıq xəstəliyinə düçar olan şəxslər barəsində tibbi tədbirlərin tətbiq edilməsi Qaydası"nda etdiyi dəyişiklikdə əksini tapıb.

Bu qərar Daxili İşlər Nazirliyinin (DİN) narkomaniya xəstəliyi ilə bağlı tibbi xarakterli məcburi tədbirlərin həyata keçirildiyi tibb müəssisəsinin fəaliyyətə başladığı gündən qüvvəyə minir.

# İki maliyyə məmuru qəfil öldü

**Maliyyə Nazirliyinin Dövlət Maliyyə Nəzarəti Xidmətinin aparıcı məsləhətçi-nəzarətçi müfəttişi Mayis Sarıyev və Hesablama Palatasının Sosial Müdafiə və Sosial Təminat sahələrinin auditi şöbəsinin baş məsləhətçisi Eldar Abdullayev qəfil vəfat edib. Lent.az xəbər verir ki, hər iki məmur qəfil ürək tutmasından ölüb.**

Bildirilir ki, E.Abdullayev 20 Yanvar şəhidlərinin anım günündə Şəhidlər Xiyabanını ziyarət edib. Daha sonra evə gələn E.Abdullayev narahatlıq keçirib və həkim müayinəsindən keçib. Həkimlər onun ürəyinə stend qoyulmasını məsləhət görüb.

**Elan**

**Xırdalan şəhəri, H.Əliyev prospekti, 30-cu məhəllə, kristal MTK, 7-ci mərtəbə, 58,6 kv.m sahəsi olan 2 otaqlı mənzil. İçində Türkiyə istehsallı mətbəx mebeli var. Qiyməti 64000 manat. Kupçası var, qaz, işıq, su daimidir. Mühafizə ilə qorunan binadır. Əlaqə nömrəsi: 050 561-64-67.**

**Siqaret və spirtli içkilər və bəzi yanacaq növləri bahalaşacaq. Belə ki, Nazirlər Kabinetinin “Azərbaycan Respublikasının ərazisinə gətirilən aksiz vergisinə cəlb olunan malların aksiz dərəcələrinin təsdiq edilməsi haqqında” qərarında etdiyi dəyişikliklə tütün və tütün məmulatlarına tətbiq edilən aksiz vergiləri 2 dəfədən çox artırılıb. 2017-ci il dekabrın 21-də dərc olunmuş qərar 30 gün sonra yanvarın 23-də qüvvəyə minib.**

# İqtisadçıdan bahalaşma anonsu

## Ölkəyə gətirilən malların aksiz vergisinin artması digər məhsulların da qiymətinə təsir edəcək

Qərara əsasən, tərkibində tütün olan siqarlar, ucları kəsilmiş siqarlar və siqarillaların 1000 ədədinə tətbiq edilən aksiz dərəcəsi 10 manatdan 20 manata, tərkibində tütün olan siqaretlərin, o cümlədən digər siqaretlər və siqarillaların 1000 ədədinə tətbiq edilən aksiz dərəcəsi 4 manatdan 12 manata qaldırılıb.

Həmçinin, yanvarın 23-dən Azərbaycana gətirilən pivə və alkoqollu içkilərə yeni aksiz dərəcələrinin tətbiqinə başlanıb. İndiyə qədər səməni pivəsinin 1 litr üçün 1 manat, təbii üzüm şərabları, spirt qatılmışlar daxil olmaqla, üzüm suslosunun 1 litri üçün 2 manat, şampan şərabının 1 litr üçün 2,5 manat, qıcqırma prosesində və ya spirt əlavə edilməkdən fərqli üsulla dayandırılmış qıcqırma ilə alınmış digər üzüm susloları üçün 1 litr üçün 0,1 manat aksiz dərəcəsi tətbiq olunub.

Dəyişikliyə əsasən yanvarın 23-dən səməni pivəsinin 1 litr üçün aksiz vergisi 1 manatdan 1,7 manata, təbii üzüm şərabları, spirt qatılmışlar daxil olmaqla, üzüm suslosunun 1 litri üçün 2 manatdan 3,5 manata, şampan şərabının 1 litr üçün 2,5 manatdan 5 manata, qıcqırma prosesində və ya spirt əlavə edilməkdən fərqli üsulla dayandırılmış qıcqırma ilə alınmış digər üzüm susloları üçün 1 litr üçün 10 qəpikdən 20 qəpiyə qaldırılıb.



Digər içki növləri üzrə aksiz dərəcələri də 2 dəfəyə qədər artırılıb.

Digər qərarla isə Azərbaycan ərazisinə gətirilən mühərrik benzin növlərinə yeni aksiz dərəcələrin tətbiq edilməsinə başlanılıb. Qərara əsasən, aviasiya benzin növləri istisna olmaqla, tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox olmayan, 95-dən az oktan ədədi ilə mühərrik benzin növlərinə aksiz dərəcəsi 1 ton üçün 1 manatdan 200 manata qaldırılıb.

Tərkibində qurğuşunun miqdarı 0,013 q/l-dən çox, 95-dən az oktan ədədi ilə mühərrik benzin növlərinə tətbiq olunan 1 ton üçün 1 manat aksiz dərəcəsi də 200 manata qaldırılıb.

Bəs görəsən, aksiz dərəcələrinin artımı sözügedən məhsulların qiymətinə nə vaxtdan etibarən təsir göstərəcək? İstehlakçıları hansı həddə bahalaşma gözləyir?

**İqtisadçı ekspert Natiq Cəfərli “Yeni Müsavat”ın suallarını cavablandırarkən bildirdi ki, tütün və alkoqollu içkilərdə yanvarın 23-dən başlayaraq bahalaşma müşahidə olunacaq:** “İş adamları indiki vəziyyətdən istifadə edərək, əvvəlcədən gətirdikləri məhsulları da tədricən bahalaşdıracaqlar. Əsas artım tempi isə 1 həftə -10 gündən sonra müşahidə olunacaq. Çünki bu qərar bazarlara daha çox təsir etməyə başlayacaq. Aksiz dərəcələrinin artırılması qiymətlərə 20-25 faiz civarında təsir edə bilər. Çünki aksizlərin ümumi qiymətlərdəki payı təqribən bu qədərdir. Bir yanlışlıq da var ki, bəziləri bu qərarın yerli istehsalçılara təsir etməyəcəyini düşünürlər. Hesab edirlər ki, ancaq xaricdən idxal olunan məhsullara təsir edəcək. Ancaq bu belə deyil. Yerli istehsalçılar da xaricdən gətirilən xammaldan istifadə edilər. Əsasən də spirtli içkilər istehsalında... Bu qərarla isə xaricdən gələn xammalın aksiz dərəcələri iki dəfəyə yaxın artdı. Bu yerli istehsalçılara da təsir göstərəcək».

**Benzinin qiymətinin nə qədər artmasına gəlincə, N. Cəfərli bildirdi ki, aksiz dərəcələrinin artması ancaq “Premium” və “Super” markalı benzinlərə təsir göstərə bilər:** “Bu iki növ benzinin qiyməti son zamanlar onsuz da kifayət qədər yüksəlmişdi. Bu qərarla yenidən təqribən 10-15 faiz civarında artması gözlənilir. Ancaq artım elə həddə olacaq ki, məntiq baxımından da uyğun olsun. Birdən-birə kəskin bahalaşma olsa, tələbat azala bilər. Bu növ benzinlərdən istifadə edənlərin sayı onsuz da azdır, kəskin bahalaşmadan sonra sürətlə azala bilər. Bu da həmin SOCAR-ın törəmə şirkəti olan həmin qurumun gəlirlərinə mənfi təsir göstərə bilər. O baxımdan kəskin artım olmasa da, yumşaq formada artımın həyata keçirilməsinə çalışacaqlar. O baxımdan yaxın zamanlarda ”Premium" və “Super” markalı benzinlərin 10-15 faiz bahalaşması gözlənilir".

**Bu bahalaşmanın yerli istehsal olan Aİ 92 markalı benzinin qiymətinə təsir göstərib-göstərməyəcəyinə gəlincə, ekspert qeyd etdi ki, kəskin qiymət dəyişikliklərinin olacağı gözlənilmir:** “Aİ 92 markalı benzinin qiyməti bir neçə ay öncə qalxıb. Bu baxımdan yenidən kəskin qiymət artımının olacağını gözləmirəm. Ancaq xaricdən idxal olunan benzinin xərci artdıqca, daxili bazarda da qiymət artımı ola bilər”.

**İqtisadçı ekspert aksiz dərəcələrinin artmasının yol açacağı neqativ hallara da toxundu:** “Bu qərardan sonra qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilən spirtli içkilərin və siqaretlərin həcmində ciddi artım olacaq. Fiziki olaraq onları təqib etmək onsuz da çətindir. Demək olar ki, hər gün xəbər saytlarında qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilən tütün məmulatları və alkoqollu içkilərlə bağlı məlumatlar yayılır. Bu məlumatların da sayı artacaq. Hökumət qiymət artımına gətirib çıxaracaq bu cür ciddi qərarlar verərkən, ətraf ölkələrdəki qiymətləri monitorinq edib sonra qərar verməli idi. Dünyada ideyanın və pulun qarşısını kəsən çox nadir maneələr var. Ona görə də əgər qaçaqmalçılıq sərfəli biznesə çevriləcəksə, həcmi də artacaq. Bundan başqa, yerlərdə xarici içki brendləri adı altında gizli şəkildə istehsal olunan spirtli içkilərin həcmi arta bilər. Bu da təbii ki, sağlamlıq üçün təhlükəlidir. Alkoqollu içkilərdən zəhərlənmə halları, hətta ölüm hallarının artmasına səbəb ola bilər”.

❑ **Nərgiz LİFTİYEVA,**
**“Yeni Müsavat”**

# Qış tətili başlayır, şagirdlər necə istirahət etməlidir?

## **Vəfa Rəşidova:** “Müəllimlər uşaqları daha çox dərslə yükləməyə çalışırlar”

**Yanvarın 27-dən etibarən, yəni bu həftənin şənbə günündən başlayaraq şagirdlərin qış tətili başlayır. Qış tətili 5 gün, 27-31 yanvar tarixlərini əhatə edəcək. Bəzən isə uşaqlar tətil olmasına sevinə bilmirlər. Buna səbəb isə onların müəllimlər tərəfindən ağır məktəb tapşırıqları ilə yüklənməsidir. Valideynlərin də əksəriyyəti uşaqlarının tətildə belə dərslərlə məşğul olmasını istəyir, hətta onların tətil günlərində hansı saatda istirahət, hansı saatda dərslərlə məşğul olmaq vaxtını belə özləri müəyyənləşdirir. Psixoloqlar isə bunun tamamilə yanlış bir yanaşma olduğunu və uşaqların zehninə, psixologiyasına mənfi təsir göstərdiyini deyirlər.**

Psixoloq Vəfa Rəşidova bəzən müəllimlərin ən önəmli psixoloji məqamları unutduğu-



nu dedi: “Müəllimlər tərəfindən evə tətil tapşırıqlarının verilməsi bütün dövrlərdə olub. Ən önəmli məsələ bu tapşırığın hansı ağırlıqda olmasıdır. Əgər bu tapşırıq uşağın bütün istirahət zamanını alırsa, təbii ki, uşağın psixologiyasında ciddi problemlər yarana bilər. Çünki uşaq tətil zamanı istirahət etməyə fokuslanır, ancaq fərqli bir vəziyyətlə, ağır tapşırıqlarla rastlaşanda uşaqda aqressiya və qıcıq yarana bilər. Əvvəllər tətil tapşırıqları elə verilirdi ki, uşaq bunu sevə-sevə edirdi. Amma bu gün verilən tapşırıqlar ağır olur. Məktəblilərin ağır dərs qrafiki olur, hər ay dərsə gedir, yalnız bazar günü evdə olurlar. Buna görə də uşaqlar tətil günlərini səbirsizliklə gözləyir. Müəllimlər anlamalıdır ki, əvvəlki qrafiklə indiki qrafik arasında çox böyük fərq var. Məhz bu fərq nəzərə alınaraq evə tapşırıq verilməlidir. Əgər illər öncəni nəzərə alıb tapşırıq verirlərsə, bu çox yanlış yanaşmadır. Təəssüf ki, bu gün məktəblilərin qrafiki, dərs yükləri çox çətin və ağırdır. Ona görə də uşaqlar tətil günləri yaxşı istirahət etsələr, məktəb başlayarkən dərsə zehni yorğun, aqressiv bir şəkildə getməyəcəklər. Təəssüfə qeyd etməliyəm ki, bu gün müəllimlər uşaqların psixoloji tərəflərini nəzərə almırlar. Sadəcə, uşağı professor etmək, daha çox dərslə yükləməyə çalışırlar. Ən önəmli psixoloji məqamlar isə unudulur. Burada müəllimlərin diqqətli olması çox önəmlidir. Çünki sonra şagirddə müəllimə qarşı qıcıq, nifrət yarana bilər. Uşağın beynində ”müəllim məni yükləyir, istirahətimə mane olur" düşüncəsi yaranır və beləcə uşaqla müəllim arasında dərs zamanı problemlər yaranır. Tapşırıqlar şagird üçün qıcıq yox, xoş bir təəssürat yaradan tapşırıqlar olarsa, bu çox gözəl olar".

**Psixoloq ağır ev tapşırıqlarının uşaqların savadlanmasına da mane olduğunu bildirdi:** “İndi ağır tapşırıqlarla yüklənən uşaqlar sabah ali məktəbdə oxumağı belə özlərinə ağır yük hesab edirlər. Hətta böyüklər belə çox çalışanda, oxuyanda bunun ağırlığını qaldıra bilmir, gərgin olur, nəinki uşaqlar. Uşağı da bir şəxsiyyət kimi görüb onun dəyərlərini, istirahətini düşünmək çox önəmlidir. Bəzən biz unuduruq ki, uşaq da bir fərddir”.

**Milli Məclisin (MM) Əmək və sosial siyasət komitəsinin sədri Hadi Rəcəbli də bu günlərdə uşaqların, orta məktəb şagirdlərinin təhsildən kənar, o cümlədən, asudə vaxtlarının və istirahətlərinin daha səmərəli təşkil olunması üçün bu məsələni tənzimləyəcək ayrıca qanunvericilik aktının hazırlanmasının vacib olduğunu bildirib. Bu məsələ ilə bağlı müvafiq qanun layihəsinin ilkin variantının hazırlandığını, rəhbərlik etdiyi komitə çərçivəsində müzakirələr aparıldığını qeyd edən deputatın sözlərinə görə, müzakirələrdə belə sənədin olmasının vacibliyi vurğulanıb.** “Sadəcə, qanun layihəsi maliyyə tutumlu olduğu üçün onunla bağlı dəqiqləşdirmələrin aparılması zərurəti ortadadır və çox güman ki, aidiyyəti qurumların, xüsusən də Maliyyə Nazirliyinin xeyir-duasından sonra bu məsələ, nəhayət, öz müsbət həllini tapa bilər”.

Onun sözlərinə görə, bu məsələdə önəmli məqamlardan biri də yetişməkdə olan nəslin dünyagörüşü, onların ölkənin bölgələri, yerli adət-ənənələri, xüsusiyyətləri ilə tanışlığı, onları mənimsəyərək, əxz edərək yayması, o cümlədən, onlarda turizm təfəkkürünün formalaşdırılması məsələsidir.

**Qeyd edək ki, şagirdlərin növbəti istirahəti 8 mart - Beynəlxalq Qadınlar Günü və Novruz bayramı günlərində olacaq. 20, 21, 22, 23, 24 mart tarixləri Novruz bayramı hesab olunduğundan, 24 mart isə şənbə, yəni həftələrarası istirahət günü iş günü hesab olunmayan bayram gününə düşdüyündən, 26 mart qeyri-iş günü olacaq. Buna görə də bu il Novruz bayramında bir həftə qeyri-iş günü olacaq və bununla əlaqədar şagirdlər ardıcıl olaraq, həftənin 7 günü istirahət edə biləcəklər.**

❑ **Günel MANAFLI,**
**“Yeni Müsavat”**

# YENİ MÜSAVAT

## Son səhifə

*N 17 (6906) 24 yanvar 2018*




## Sərxoş sürücü canlı yayımda qəzaya uğradı

Avstraliya polisi sərxoş xanım sürücünün maşın idarə edərkən canlı yayıma çıxmasını aşkarlayıb və həmin videonu yayımlayıb. Viktoriya ştatı polisi bildirib ki, bu videonu yayımlamaqda məqsəd sərxoş vəziyyətdə və əlində telefonla maşın sürmənin necə təhlükəli olduğunu nümayiş etdirmək istəyib. Qız Avstraliyanın Vktoriya ştatının yolları üzrə hərəkət edir və yaşadıqlarını "Snapchat" sosial şəbəkəsi vasitəsilə canlı yayımlayırdı. Səfər 19 yaşlı qızın qəza törətməsi və telefonunun ekranını sındırması ilə yekunlaşıb. Onun qanında spirtin miqdarı isə normadan 3 dəfə artıq olub.

2017-ci ilin dekabr ayında qız sərxoş vəziyyətdə, mobil telefonla, sürətli maşın idarə etdiyinə görə məhkəmə qarşısına çıxıb. Həmin vaxt onu 4 il müddətinə sürücülük hüququndan məhrum edərək, 2 min Avstraliya dolları məbləğində pul cərimesi veriblər.

## Uşaqlar diqqət çəkmək üçün dəcəllik edir

Türkiyəli uşaq psixoloqları müəyyənləşdirib ki, 3-11 yaşlı uşaqların valideynlərinin sözünə qulaq asmaması, onları incitməsi daha çox onların diqqət çəkmək cəhdi ilə bağlıdır. Xüsusən anaların iş qadını olduğu bu zamanda uşaqlar onlardan "oğurlanan" vaxta görə mübarizə aparırlar. Psixoloqlar müəyyən edib ki, uşaqlar bu cür asi davranışları ilə analarının onlar barədə daha çox düşünməsinə nail olmaq istəyir. Araşdırmaya rəhbərlik edən psixoloq Nadir Özdilek açıqlayıb ki, analar məhz uşaqlarının əcaib hərəkətlərindən sonra sanki silkələnir: "Analar məhz bu zaman uşaqlarına az vaxt ayırdıqlarının fərqinə varır və onların tərbiyəsinə, davranışına xüsusi diqqət ayırır. Amma uşaq bunu daim təkrarlayırsa, onu psixoloq yanına aparmaq lazımdır".



## Ata olmaq üçün 57 kilo arıqladı və... oğlu dünyaya gəldi



159 kilo çəkisi olan britaniyalı çəkisinin 1/3-ni ata olmaq üçün atdı. Bu barədə "Daily Star" nəşri xəbər verib. 3 il dalbadal ata olmaq cəhdi uğursuzluqla nəticələnən Denni Braun yaşadığı Lesterşir şəhərində həkimə gedib. Həkimsə ona ata ola bilməməsinin səbəbinin piylənmə olduğunu deyib və ona 32 kilo atmasını deyib. Ancaq ondan sonra kişinin və onu arvadını süni mayalanma üsulu ilə ata olmasına imkan verəcəklər. "Mən hər zaman ata olmaq istəsəm də, hez nə alınmırdı. Mən heç vaxt düşünməzdim ki, artıq çəkim buna mane olur" deyən Braun mikroavtobusda sürücüdür, hər zaman az hərəkət edib və daim fast-foodla qidalanır. Kişi gəncliyindən etibarən depressiyadan əziyyət çəkib və bunların qarşısını almaq üçün atdığı dərmanlar şişmanlamasına səbəb ola bilər.

Arıqlamaq üçün Braun öz həyat tərzini dəyişib. Belə ki, o, fast- food restoranlarında yemək yeməkdən imtina edib, spirtli içkinin miqdarını azaldıb və həftədə 4 dəfə idman zalına getməyə başlayıb. İki aydan sonra o, 13 kilo ata bilib. Bundan sonra, təbii yolla ata ola bilib. Amma Braun bununla da yekunlaşmayıb və arıqlamağa davam edib. Nəticədə isə 57 kilo çəki atıb. "Oğlunu ilk dəfə qucağına almağın verdiyi hiss dünyada heç nə ilə əvəz oluna bilməz. Mən ilk dəfə övladımı qucağıma alanda bildim ki, bu hiss çəkdiyim bütün həyəcanlara dəyərmiş".

**O, öz uğurunu qətiyyətli olması ilə əlaqələndirib və qeyd edib ki, istənilən şəxs onun bu nümunəsini təkrarlaya bilər. Hazırda kişi arıqlamağa və idmanla məşğul olmağa davam edir. Deyir ki, böyüyən oğlunun yanında pərt olmamaq üçün bunu etməyə məcburdur:** "İstəyirəm ki, gələcəkdə oğlumla idman oyunları oynaya bilim və ona nümunə olum. İstəməzdim ki, o, ağır çəkili tənbəl bir ata ilə böyüsün və ondan utansın". Bunu da Braun belə izah edib.

## Qoroskop




**QOÇ** - Səbrli olmaq, bir qədər məxfilik nümayiş etdirmək yaxşı olardı. Çünki bu gün ovqatınızı aşağı sala bilən adamlarla rastlaşa bilərsiniz. Saat 15-19 arası pul əldə etmək şansınız çox böyükdür.

**BUĞA** - Nahara qədər bir çox sahələrdə diqqətsizliyiniz ucbatından problemlərlə rastlaşa bilərsiniz. Bu səbəbdən də bütün məsələlərdə ayıq-sayıq olmalı, lazım gəldikdə məsləhətlərdən yararlanmalısınız.

**ƏKİZLƏR** - Sevgi münasibətlərində mövcud olan passivliyinizi aradan qaldırmağa çalışın. Qarşı tərəfə güzəştə gedin. İş gününün sonunda şəxsi büdcənizi artırmaq imkanı qazanacaqsınız. Özünüzü soyuqdan qoruyun.

**XƏRÇƏNG** - Sizin üçün xüsusi bir gündür. Çünki bu gündən kosmik fon xeyrinizə dəyişəcək. Deməli, digər bürclərlə müqayisədə sizi daha şanslı və perspektivli günlər gözləyir. Buna hazır olun.

**ŞİR** - Daxili sıxıntılarınızı dəf etmək üçün bir qədər təmiz havada olun. Lazımsız informasiyalarla özünüzü yükləməyin. Əgər fəaliyyət istiqamətində yeni təkliflər alsanız, razılıq verməyə tələsməyin.

**QIZ** - Bu günün planetar mənzərəsi xeyrinizə işləyəcək. Bununla da siz şanslılar sırasına düşəcək, uğurlar silsiləsinin başlanğıcına yetişəcəksiniz. Gün ərzində yalnız bu barədə düşünməlisiniz.

**TƏRƏZİ** - Günə yeni planlarla başlamalısınız. Amma ulduzlar məsləhət görür ki, bütün qlobal planlarınızda məxfiliyə riayət edəsiniz. Yalnız bu halda günün ovqatı sizi qane edəcək. Uzaq yola çıxmağa dəyməz.

**ƏQRƏB** - Səhər saatlarında azacıq gərginliyiniz olsa da, bu, tez ötüb keçəcək. Əslində bu əlamətdar təqvimdə gərək özünüzü toparlamağı bacarasınız. Çünki günortaya doğru sevindirici olaylar başlayacaq.

**OXATAN** - İxtiyarınızda olan bu təqvimdə hüquqi sənədlərlə, maliyyə-bank əməliyyatları ilə bağlı bütün yarımçıq işlərinizi başa çatdırmalısınız. Bunu bacarsanız, ayın sonuna qədər ovqatınız çox yüksək olacaq.

**OĞLAQ** - Tələsik qərarlar, riskli vədlər verməyin. Əslində bu gün siz ətrafınızda olan insanların mahiyyətini, onların sizə sədaqətliliyini yoxlamalısınız. Axşam saatlarında soyuqdəymədən qorunmalısınız.

**SUTÖKƏN** - Bürcünüzün Göy qübbəsində tam oturuşması şanslarınızı xeyli artıracaq. Hətta baş verən situasiyalarda iştirakınızdan asılı olaraq bugünkü ovqatınız bütün ilboyu davam edə bilər. Bu səbəbdən də nə olursa-olsun, nikbinliyinizi əldən verməməlisiniz.

**BALIQLAR** - Saat 13-ə qədər tamamlanması mümkün olan bütün işləri başa çatdırın. Sonrakı müddətdə isə Göy qübbəsinin sizin üçün hazırladığı sürprizlərə hazır olmalısınız. Tənqidi təhqir kimi qəbul etməyin.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Telefonun batareyasını yoxlamaq istədi, ağzında partladı



Çində iPhone üçün saxta batareya alıcının ağzında partlayıb. Bu barədə lenta.ru saytı "Daily Mail"ə istinadən xəbər verib. Batareyanı yoxlamaq üçün kişi onu dişlərinin arasına alıb və sıxıb. Bir neçə saniyə keçmədən böyük bir partlayış olub. Hadisənin baş verdiyi yerin yanında 5 nəfərə yaxın adam olsa da, insident nəticəsində heç kim zədə almayıb. Yanvarın əvvəlində İsveçrədəki "Apple Store" mağazasında iPhone telefonunun tüstülənən batareyasına görə 50 nəfəri evakuasiya ediblər.

**Səhifəni hazırladı: SELCAN**


Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Nazim SABİROĞLU

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 5.100